AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI

FİZİKA-RİYAZİYYAT VƏ TEXNİKA ELMLƏRİ BÖLMƏSİ

2012-ci ildə

# RADİASİYA PROBLEMLƏRİ İNSTİTUTUNUN ELMİ VƏ ELMİ-TƏŞKİLATİ FƏALİYYƏTİ HAQQINDA

# H E S A B A T I

BAKI - 2012

# İl boyunca aparılmış işləri əsasən aşağıdakı qruplara ayırmaq olar:

1. **Elmi-təşkilati işlər**
2. **Elmi-tədqiqat işləri**
3. **Respublika üzrə Nüvə və Radiasiya Təhlükəsizliyi Problemlərinə aid monitorinq və ekspertiza işləri**
4. **Respublikanın müvafiq dövlət qurumlarının əməkdaşları üçün Nüvə və Radiasiya Təhlükəsizliyi üzrə tədris kurslarının təşkili**
5. **Beynəlxalq qrantlar üzrə işlər**
6. **Respublikanın Atom Enerjisi Üzrə Beynəlxalq Agentlik (AEBA), Müstəqil Dövlətlər Birliyinin "Atom Enerjisindən Dinc Məqsədlərlə İstifadə" üzrə dövlətlərarası komissiyası, NATO ilə elmi və elmi-texniki tutumlu məsələlərdə əlaqəlilik missiyası sahələrində işlər**
7. **Respublikada AEBA-nin nüvə elmləri sahəsində informasiya mübadiləsinin həyata keçirilməsi**
8. **Elmi nəticələrin tətbiqi**
9. **Kadr hazırlığı**
10. **Beynəlxalq sazişlər və ölkə daxili müqavilələr üzrə elmi-tədqiqat işləri**
11. **Elmi nəticələrin müzakirəsi və mübadilə üzrə konfrans, seminar və görüşlər**

# 1.ELMİ-TƏŞKİLATİ İŞLƏR

- 2012-ci hesabat ilində RPİ-da son illərdə başlanmış elmin təşkilində yenidənqurma işləri davam etdirilmişdir. Belə ki, Yeni 3 illik elmi-tədqiqat işlərinin planları əsasən Respublikamızın elmi tutumlu problemlərinin həllinə yönəlib. Beynəlxalq sazişlər, qrantlar və büdcə vəsaiti hesabına laboratoriyaların yeni avadanlıqlarla təchiz olunması davam edib.
- Dünyanın Nüvə elmləri ilə məşğul olan Mərkəzlərində, ali elmi-praktiki kurslarda, gənc mütəxəssislər üçün təşkil olunmuş treninqlərdə, xarici dövlətlərdə keçirilən tədris kurslarında, məktəb-seminarlarda hazırliq keçilməsi, Beynəlxalq layihə və qrantlarda iştirak yolu ilə kadrların hazırlanması işi aparılıb və BDU-nun magistrləri hesabına kadr potensialının yeniləşməsi həyata keçirilib.
- İnstitutda Respublikamızda nüvə və radiasiya təhlükəsizliyi sahəsində elmi və elmi-texniki problemlərin həlli üçün ən müasir avadanlıqlarla təchiz olunmuş ekspertiza mərkəzinin əməkdaşları tərəfindən cari ildə müxtəlif istehsal sahələri, respublikanın müxtəlif bölgələrinin ekoloji problemli ərazilərində çox saylı ekspertiza və monitorinq işləri aparılıb.
- İnstitutun laboratoriyalarının malik olduğu avadanlıqlar işlək vəziyyətə gətirilib, il boyunca plan üzrə eksperimental tədqiqat işləri lazımi səviyyədə həyata keçirilib. Alınmış eksperimental nəticələr nəzəri model təcrübələri ilə təsdiqlənib.
- İnstitutun əsas elmi istiqamətlərinə uyğun yaradılmış nəzəri qruplar uyğun kompyuter və digər lazımi şəraitlə təmin olunub.

- İnstitutun nəzdində “Nüvə və Radiasiya Təhlükəsizliyi Üzrə Ekspertiza”, “Ətraf mühitin fizika və kimyası”, “Nüvə Elmləri üzrə Beynəlxalq Məlumat” Mərkəzləri fəaliyyət göstərir. Bu mərkəzlər ən müasir avadanlıqlarla təchiz olunmaqla, respublikamıza xas problemlərin həlli ilə bərabər müvafiq sahələr üzrə beynəlxalq qurumlarla da əlaqələri həyata keçirir. Respublika daxilində Fövləladə Hallar, Ekologiya və Təbii Sərvətlər, Sənaye və Energetika, Milli Təhlükəsizlik, Müdafiə Sənayesi Nazirlikləri, Respublika Gömrük Komitəsi, Respublika Sərhəd Xidməti, Dövlət Neft Şirkəti və həmin qurumlara tabe müəssisələr ilə sıx əlaqə qurulib və birgə işlər aparılır. Həmin işlərin müəyyən hissəsi qarşılıqlı razılaşmalar əsasında müqavilələr üzrə həyata keçirilib.
- İnstitutun xarici əlaqələri ABŞ-nın Energetika Nazirliyinin müxtəlif Deportamentləri, Almaniyanın Helmholtz Centrum, Ekoloji kimya İnstitutu, İsveçrənin Lozanna Politexnik Federal İnstitutu, İngiltərənin “LGC”, Hollandiyanın “SETOC” və BAEA Manako dəniz laboratoriyası ilə əməkdaşlıq şəklində davam etdirilir,elmi-tədqiqat işləri aparılır, analitik laboratoriya texnikası ilə tanışlıq həyata keçirilir.
- Çikaqo Universitetinin Arqon, Botilli laboratoriyaları, NATO, SRDF fondları, Atom Enerjisi üzrə Beynəlxalq Agentlik (AEBA), AEBA-nın Zibelsdorf və Monilla Mərkəzləri, Avropa komissiyasının Transuran elementlər mərkəzi, Cənubi Koreya Respublikasının Atom Enerji Tədqiqatları İnstitutu, Polşanın Varşava Nüvə kimyası və texnologiyaları İnstitutu, Ukrayna Çernobıl Nüvə Tədqiqatları, radioaktiv tullantılar və radioekologiya üzrə Beynəlxalq radioekoloji laboratoriya və sair ilə əməkdaşlıq davam etdirilir.

# 2. ELMİ-TƏDQİQAT İŞLƏRİ

# 2012-ci ildə 4 problem üzrə 13 mövzuya uyğun 25 iş yerinə yetirilib:

**I PROBLEM:** NÜVƏ ENERJİSİNİN ÇEVRİLMƏ PROSESLƏRİ VƏ EKOLOJİ PROBLEMLƏRİN HƏLLİ İSTİQAMƏTİNDƏ İSTİFADƏSİ üzrə - 8 iş

**II PROBLEM:** BƏRK CİSİMLƏRDƏ RADİASİYA STİMULLAŞDIRICI PROSESLƏR üzrə - 4 iş

**III PROBLEM:** RESPUBLİKA ƏRAZİSİNDƏ RADİOEKOLOJİ DURUMUN TƏDQİQİ, RADİASİYA AMİLLƏRİNİN BİOLOJİ SİSTEMLƏRƏ TƏSİR MEXANİZMİNİN ÖYRƏNİLMƏSİ, CANLI ORQANİZMLƏRİN ŞÜALANMANIN TƏSİRİNDƏN QORUNMASININ VƏ RADİASİYA TƏHLÜKƏSİZLİYİ PROBLEMLƏRİNİN ELMİ ƏSASLARININ İŞLƏNİB HAZIRLANMASI üzrə - 11 iş

**IV PROBLEM:** ENERJİ DAŞIYICILARININ ALINMASI, İSTEHSALAT VƏ MƏİŞƏTDƏ ENERJİ TƏMİNATINDA BƏRPA OLUNAN ENERJİ MƏNBƏLƏRİNİN İSTİFADƏSİNİN ELMİ ƏSASLARININ İŞLƏNMƏSİ üzrə - 2 iş

# AMEA RADİASİYA PROBLEMLƏRİ İNSTİTUTUNDA 2012-ci ildə ETİ

| Elmi müəssisənin adı | Problemlərin sayı | Mövzuların sayı | | Işlərin sayı | | Mərhələlərin sayı | |
|---|---|---|---|---|---|---|---|
| | | Plan | Tamam-lanmış | Plan | Tamam-lanmış | Plan | Tamam-lanmış |
| **RADİASİYA PROBLEMLƏRİ İNSTİTUTU** | 4 | 13 | - | 25 | 25 | - | - |

# AMEA RADİASİYA PROBLEMLƏRİ İNSTİTUTUNUN STRUKTURU

# AMEA RADİASİYA PROBLEMLƏRİ İNSTİTUTU

- “ƏTRAF MÜHİTƏ ZƏRƏRLİ FAKTORLARIN FİZİKA VƏ KİMYASI” LABORATORİYASI (№ 1)
- “POLİMERLƏRİN RADİASİYA KİMYASI VƏ TEXNOLOGİYASI” LABORATORİYASI (№ 2)
- “POLİMER VƏ ELEKTROAKTİV MATERİALLARIN RADİASİYA FİZİKASI” LABORATORİYASI (№ 3)
- “SEQNETOELEKTRİKLƏRİN RADİASİYA FİZİKASI” LABORATORİYASI (№ 4)
- “BƏRPA OLUNAN ENERJİ NÖVLƏRİNİN ÇEVRİLMƏSİ” LABORATORİYASI (№ 5)
  - “KÜLƏK ENERGETİKASI” QRUPU
- “YARIMKEÇİRİCİLƏRİN RADİASİYA FİZİKASI” LABORATORİYASI (№ 6)
- “CİHAZLARIN RADİASİYA FİZİKASI” LABORATORİYASI (№ 7)
- “ENERJİTUTUMLU RADİASİYA PROSESLƏRİ” LABORATORİYASI (№ 8)
- “ENERJİQƏNAƏTEDİCİ RADİASİYA PROSESLƏRİ” LABORATORİYASI (№ 9)
- “ƏTRAF MÜHİTİN RADİASİYA KİMYASI” LABORATORİYASI (№ 10)
- “HETEROGEN PROSES-LƏRİN RADİASİYA KİMYASI” LABORATORİYASI (№ 11)
  - “NÜVƏ REAKTORLARININ FİZİKASI” QRUPU

- “RADİOBİOLOGİYA” LABORATORİYASI (№ 12)
- “RADİOEKOLOGİYA” LABORATORİYASI (№ 13)
- “RADİOKİMYA” LABORATORİYASI (№ 14)
  - “RADİONUKLİD TƏRKİBLİ MATERİALLAR FİZİKASI” QRUPU
- “RADİOPROTEKTORLAR” LABORATORİYASI (№ 15)
- “İZOTOP MƏNŞƏLİ ŞÜA MƏNBƏLƏRİ” ELMİ-TƏCRÜBİ ŞÖBƏ
- “ELEKTRON SÜRƏTLƏNDİRİCİ” ELMİ-TƏCRÜBİ ŞÖBƏ
- “RESPUBLİKA NÜVƏ VƏ RADİASİYA TƏHLÜKƏSİZLİYİ ÜZRƏ EKSPERTİZA” ŞÖBƏSİ
  - “RADİOİZOTOP-YAŞ TƏYİNETMƏ” QRUPU
- “RADİASİYA CİHAZQAYIRMA” ŞÖBƏSİ
- “NƏZARƏT ÖLÇÜ CİHAZLARI” ŞÖBƏSİ
- “BEYNƏLXALQ LAYİHƏLƏR VƏ İNFORMASİYA” ŞÖBƏSİ
  - “PATENTLƏŞMƏ” ŞÖBƏSİ
- İNİS - SİSTEMİNİN AZƏRBAYCAN MİLLİ ŞÖBƏSİ

# NÜVƏ ENERJİSİNİN DİNC MƏQSƏDLƏRLƏ İSTİFADƏSİ SAHƏSİNDƏ ALINMIŞ MÜHÜM NƏTİCƏLƏR

# *1. ELMİ İSTİQAMƏT: NÜVƏ ENERJİSİNİN DİNC MƏQSƏDLƏRLƏ İSTİFADƏSİ*

## I PROBLEM: NÜVƏ ENERJİSİNİN ÇEVRİLMƏ PROSESLƏRİ VƏ EKOLOJİ PROBLEMLƏRİN HƏLLİ İSTİQAMƏTİNDƏ İSTİFADƏSİ

***I Problem üzrə 4 mövzu, 8 elmi tədqiqat işi yerinə yetirilmişdir.***

# MÖVZU 1: OKSİD, METAL-OKSİD SİSTEMLƏRİNDƏ MÜXTƏLİF TEXNOLOJİ MÜHİT TƏMASINDA GEDƏN RADİASİYA-HETEROGEN PROSESLƏRİN KİNETİKA VƏ MEXANİZMLƏRİNİN TƏDQİQİ, ONLARIN RADİASİYA-TERMİK TƏSİRƏ DAVAMLILIQLARININ ARTIRILMA ÜSULLARININ İŞLƏNİLMƏSİ



**"HETEROGEN PROSESLƏRİN RADİASİYA KİMYASI" LABORATORİYASI**

**Elmi məsləhətçi -**
**AMEA-nın müxbir üzvü,**
**Əməkdar Elm Xadimi**
**k.e.d., prof., A.A.Qəribov**

***İş 1: Səthi qabaqcadan radiasiya oksidləşməyə məruz qalmış tərkibində fosfor olan paslanmayan poladın su ilə T=473-573K temperatur intervalında təmasında radiasiya-heterogen prosesin tədqiqi və radiasiyaya davamlılığının artırılması***

**Məsul icraçı: Kimya üzrə PhD. T.N.Ağayev**

- Temperatur faktorunun radiasiya - hetorogen proseslərinin gedişinə təsiri, qanunauyğunluğunun aşkar edilməsi, sistemin davamlı iş rejiminin təmini və radiasiyaya davamlı materialların seçimi məqsədi ilə paslanmayan poladın su ilə təmasında radiasiya-heterogen proseslərə temperaturun T=373÷573K intervalında təsiri tədqiq olunmuşdur (şəkil 1-3).
- Bu il laboratoriyaya aşağıdakı cihazlar alınmışdır:

1. Agilent 7820A Xromatoqrafik komplekti
2. (59813,58 AZN)
3. İQ Spektrometr FT-SR Varian 640 İR
4. Cary 50 Scan UV-VİS Spektrofotometr (UB)



**“HETEROGEN PROSESLƏRİN RADİASİYA KİMYASI” LABORATORİYASI**

**Laboratoriya rəhbəri:**
**Kimya üzrə PhD. T.N.Ağayev**

**Şəkil 1:** Tərkibində 12% fosfor olan paslanmayan poladın su ilə təmasında gedən radiasiya-heterogen proseslər nəticəsində molekulyar hidrogenin əmələgəlmə kinetikası T=373K, $\rho_{H20}$ = 5 mQ/sm$^3$, D´=0,4 Qr/san.



**Şəkil 2:** Fosforla modifikasiya olunmuş (12%) paslanmayan poladın su ilə radiolizi zamanı $H_2$-nin əmələgəlmə kinetikası T=473K, $\rho_{H20}$ = 5 mQ/sm$^3$, D′=0,35 Qr/san, $\tau_{işlənmə}$=400 saat . 1-termiki, 2-radiasiya-termiki.



**Şəkil 3:** Fosforla modifikasiya olunmuş (12%) paslanmayan poladın su ilə radiolizi zamanı $H_2$-nin əmələgəlmə kinetikası T=573K, $\rho_{H20}$ = 5 mQ/$sm^3$, D´=0,35 Qr/san, $\tau_{işlənmə}$=400 saat . 1-termiki, 2-radiasiya-termiki.



## Alınmış nəticə:

PP-ın qabaqcadan $H_2O_2$ mühitində T=300K, $\tau_{işlənmə}$=400 saat, D´=0,35 Qr/san gücündə qamma- şüaların təsiri altında radiasiya–oksidləşdirici işlənməsi nəticəsində tərkibində fosforun miqdarı 9-12% intervalında artıqca səthin suyun parçalnmasında radiasiya-katalitik təsiri azalır, bu isə səthin radiasiya davamlılığının artması ilə izah olunur.

## *İş 2: Ra - $SiO_2$ + $H_2O$ sisteminin T=473-573K temperatur intervalında suyun radiolitik parçalanma proseslərinə təsiri*

**Məsul icraçılar: Kimya üzrə PhD. T.N.Ağayev, Mənsimov Z.Ə**

- Ra-$SiO_3$+$H_2O$ sisteminin T=473÷573K γ-radilozi nəticəsində molekulyar hidrogenin əmələ gəlmə kinetikası öyrənilmişdir (şəkil 1-2).

## $SiO_2$ alınması reaksiyası:

$$Si(OC_2H_5)_4 + H_2O \longrightarrow Si(OH)_4 + 4C_2H_5OH$$

$$C_2H_5OH + CH_3COOH \longrightarrow CH_3COOC_2H_5 + H_2O$$

$$Si(OH)_4 \xrightarrow[T=873\div1073K]{} SiO_2 + 2H_2O$$

## Radium-silikat alınması reaksiyası:
## Reaksiya T=373K, τ=12 saat müddətində aparılır.

$$Si(OH)_4 + RaCl_2 \longrightarrow Ra\text{-}SiO_3 + 2HCl + H_2O$$

**Şəkil 1:** Ra – $SiO_3$ + $H_2O$ sistemində radiasiya – termiki proseslərdə radiumun miqdarından asılı olaraq molekulyar $H_2$ –nin əmələ gəlməsinin kinetik əyriləri. 1.A= 260 Bk/g, 2. A= 2500 Bk/g,3. A= 6100 Bk/g, T=523 K, D´= 0,4 Qr/s.



**Şəkil 2:** Ra – $SiO_3$ + $H_2O$ sistemində radiasiya – termiki proseslərdə radiumun miqdarından asılı olaraq molekulyar $H_2$ –nin alınmasının kinetik əyriləri.
1.A= 260 Bk/g , 2. A= 2500 Bk/g , 3. A= 6100 Bk/g T=573 K, D´= 0,4 Qr/s.



Cədvəl. Kinetik əyrilər əsasında təyin edilmiş $W(H_2)$, $G_{ümumi}(H_2)$ və $G_{ads}(H_2)$ qiymətləri

| **Radium – silikat nümunələri, onların radioaktivlikləri Bk/q** | | **T=473K, D´= 0,4 Qr/s** | | | **T=573K, D´= 0,4 Qr/s** | | |
|---|---|---|---|---|---|---|---|
| | | $W(H_2)\cdot 10^{12}$ Molekul/ qr·s | $G_{üm}(H_2)$ Molekul/ 100 eV | $G_{ads}(H_2)$ Molekul/ 100 eV | $W(H_2)\cdot 10^{13}$ Molekul/ qr·s | $G_{üm}(H_2)$ Molekul/ 100 eV | $G_{ads}(H_2)$ Molekul/ 100 eV |
| **1.** | **260** | **7,5** | **0,27** | **54** | **1** | **0,39** | **86,5** |
| **2.** | **2500** | **14,2** | **0,55** | **104** | **1,8** | **0,71** | **156,2** |
| **3.** | **6100** | **19,2** | **0,76** | **163** | **2,8** | **1,2** | **240** |

Radium-silikat qamma-şüalarının enerjisini udaraq onu qeyri-tarazlı yük daşıyıcıların enerjisinə çevirir.

$$\mathbf{Ra\text{-}Si} \rightsquigarrow \mathbf{Ra\text{-}Si\ (e + \bigcirc)}$$

Su Ra-Si sistemində $Ra^{+2}$ kationun ətarfında ion-dipol qarşılıqlı təsiri üzrə adsorbsiya olunur.

$$\mathbf{{}^{H}_{H}\!\!>O - Ra - Si \rightsquigarrow {}^{H}_{H}\!\!>O^{+} - Ra - Si + e \rightarrow (H_2O^{*})Ra\text{-}Si}$$

$$\mathbf{(H_2O^{*}) - Ra - Si \rightarrow Ra - Si + H + OH}$$

$$\mathbf{H + H \rightarrow H_2}$$

Radium və onun parçalanma məhsulları tərəfindən həm α-şüaları, həm də parçalanmaların digər məhsulları alınır ki, onlar da silikat strukturuna təsir edirlər:

$$\mathbf{Ra\text{-}Si} \xrightarrow[\text{Ra}^{226}\text{ radioaktiv parçalanma}]{\text{daxili şüalanma}} \mathbf{Ra\text{ - }Si^{*}}$$

$$\mathbf{Ra - Si^{*} + H_2O \rightarrow Ra - Si - H_2O^{*} \rightarrow Ra - Si + H + OH}$$

**Alınmış nəticə:**

Temperaturun (T=300÷573K) intervalında Ra-$SiO_3$ tərkibində radium izotoplarının miqdarı artdıqca, onun səthində suyun radiolitik parçalanmasında hidrogenin radiasiya-kimyəvi çıxımı da artır.

Müşahidə olunmuş nəticələr sistemdə Ra izotoplarının radioaktiv parçalanma prosesindən ayrılan enerjinin səthi proseslərə təsiri ilə izah olunur.

### *İş 3: Silisium + $H_2O$ sərhəddində qamma şüaların və temperaturun təsirilə gedən radiasiya-kimyəvi proseslərin tədqiqi və riyazi modelləşdirilməsi (T=673K)*

**Məsul icraçı: Kimya üzrə PhD. Y.D.Cəfərov**

- 2×1 $sm^2$ ölçüdə monokristallik silisium (n-tip) folqası götürülmüşdür. Onun səthi təmizlənmiş, ampula daxilində vakuum şəraitində T=400 temperaturun təsirilə işləndikdən sonra, səthinə otaq temperaturunda müəyyən miqdarda su (T=400 temperatura uyğun təzyiq 0,5; 1,0; 2 və 3 atm. götürülmüşdür) əlavə edilərək bağlanılmışdır.
- Termiki və radiasiya–termiki proseslərdən alınan hidrogenin əmələgəlmə sürətlərinə ($w_T(H_2)$ – termiki, $w_{RT}(H_2)$ – radiasiya–termiki proseslərdə hidrogenin əmələgəlmə sürətləridir) əsasən onun radiasiya–kimyəvi çıxımı təyin edilmişdir.

**Cədvəl.** $Si+H_2O$ sistemindən termiki və radiasiya–termiki proseslərdən (γ – kvantlar, $^{60}Co$, P=32 rad/san) əmələ gələn hidrogenin radiasiya–kimyəvi çıxımının temperaturdan asılılığı

| Təzyiq, atm | Temperatur, $^{0}C$ | $w_{RT}(H_2)\cdot10^{-14}$ | $w_T(H_2)\cdot10^{-14}$ | $G(H_2)$, molekul/100 eV |
|---|---|---|---|---|
| | | molekul/g·san | | |
| 0,5 | 400 | 0,32 | 0.13 | 0,96 |
| 1,0 | 400 | 0,65 | 0,23 | 2,06 |
| 2.0 | 400 | 1,26 | 0,45 | 4,21 |
| 3,0 | 400 | 1,44 | 0,60 | 4,31 |

***İş 4: Metallik berilliumun su ilə təmasında radiasiya-termik oksidləşmiş səthinin suyun radiolizi prosesinə təsiri***

**Məsul icraçılar: Fizika üzrə PhD. Ş.S.İsmayılov, Fizika üzrə PhD. N.M.Hacıyeva**

- Radisiya-termik oksidləşmiş Be nümunələrinin elektrofiziki xassələri: VAX - volt-amper xarakteristikaları, səth müqavimətinin su ilə təmas zamanından asılılığı öyrənilmişdir. Müqayisə aparmaq üçün həmin temperaturda termik oksidləşmiş nümunələrin səth müqavimətinin təmas zamanından asılılığına da baxılmışdır.

**Şəkil 1.** İlkin (əyri 1) və T=673K temperaturunda su mühitində qamma-şüalanmanın təsiri ilə radiasiya-termik oksidləşmış (əyrilər 2-4) Be lövhələrin volt-amper xarakteristikaları: 1-təmiz, 2-15, 3-30 və 4-60 dəq.



**Şəkil 2.** Termik (T) və radiasiya-termik (RT) oksidləşmiş Be nümunələrinin səthi müqavimətlərinin təmas müddətindən (τ) asılılıqları: $T=673K$, $dD\gamma/dt = 0,54$ Qr/s



# Stasionar laboratoriya avadanlıqları






# 2012-ci ildə çap olunmuş elmi əsərlərin siyahısı:

- 1. ***Агаев Т.Н., Гарибов А.А., Касумова У.М.*** «Влияние мощности дозы излучения на процессы радиолиза воды в контакте с нержавеющей сталью» Естественные и технические науки, №4, 2012, с.317-323.
- **2.** ***Агаев Т.Н.*** «Механизм радиационно-каталитических процессов в системе γ-$Al_2O_3$+n-$C_6H_{14}$+$H_2O$ » Kimya problemləri, №2, 2012, s.237-242.
- **3.** ***Garibov A.A., Agayev T.N., Mansimov Z.A., Imanova G.T.*** «Regularities of radiation – catalytic system Ra-$SiO_3$ in water radiolysis process» International Conference Nuclear Science and Its Application, Samarkand, Uzbekistan, September 25-28, 2012, p. 372-373.
- **4.** ***Agayev T.N., Garibov A.A., Hasemi M.Y., Gahramani M.R.*** «Temperature influence on the kinetics of radiation-catalytic decomposition of water with the presence of phosphorus stainless steel» International Conference Nuclear Science and Its Application, Samarkand, Uzbekistan, September 25-28, 2012, p.373-374.
- **5.** ***Gadzhieva N.N., Garibov A.A., Nurmammadova F.N.*** «Effect of the surface of beryllium on radiolysis water processes upon radiation thermal treatment» International Conference Nuclear Science and Its Application, Samarkand, Uzbekistan, September 25-28, 2012, p. 405-406.
- **6.** ***Garibov A.A., Gahramani M.R., Agayev T.N., Əliyev S.M.*** «Quality control of yttrium microspheres for medical application» International Conference Nuclear Science and Its Application, Samarkand, Uzbekistan, September 25-28, 2012, p. 317-319.
- **7.** ***Agayev T.N., Garibov A.A., Mansimov Z.A., Imanova G.T.*** «A radiation – heterogeneous processes in the system Ra-$SiO_3$ + $H_2O$» The V International Conference «PERSPECTIVES OF PEACEFUL USE OF NUCLEAR ENERGY », Baku, November 21-23, 2012, p. 103.
- **8.** ***Agayev T.N., Imanova G.T., Alesgerov A.M., Rzayev A.A.*** «Radiation heterogeneous processes in the system nano-$ZrO_2$+$H_2O$» The V International Conference «PERSPECTIVES OF PEACEFUL USE OF NUCLEAR ENERGY », November 21-23, 2012, p. 136.
- **9.** ***Garibov A.A., Agayev T.N., Hashemi M.Y., Gasumova U.M.*** «Effect of radiation - thermal and thermal treatment on morphology of electrolysis Ni-P layer» The V International Conference «PERSPECTIVES OF PEACEFUL USE OF NUCLEAR ENERGY », November 21-23, 2012, p. 121.
- **10.** ***Garibov A.A., Agayev T.N., Ghahramani M.R., Əliyev S.M.*** «Paper chromatography for determination of radioactive leach ability from yttrium microspheres produced by boiled egg modeling» The V International Conference «PERSPECTIVES OF PEACEFUL USE OF NUCLEAR ENERGY », November 21-23, 2012, p. 101-102.
- **11.** ***Cəfərov Y.D., Həsənova M.R., Əliyev S.M.*** «Si+$H_2O$ sistemində gedən radiasiya-termiki proseslər» The V International Conference «PERSPECTIVES OF PEACEFUL USE OF NUCLEAR ENERGY », November 21-23, 2012, p. 42-43.
- **12.** ***Агаев Т.Н., Иманова Г.Т.*** Гетерогенный гамма-радиолиз воды в присутствии наночастиц диоксида циркония. Международная конференция молодых ученых и специалистов «Актуальные вопросы мирного использования атомной энергии» 6-8 июня, 2012, Алматы, Республика Казахстан. с. 20-21.
- **13.** ***Агаев Т.Н., Иманова Г.Т.*** «Радиационно-гетерогенные процессы в системе нано-$ZrO_2$+$H_2O$» V Всероссийская конференция «Актуальные проблемы химии высоких энергий», 23-24 октября , 2012, Москва. с. 182-183.
- **14.** ***Ahmadova A.H., Jafarov Y.D.*** «Calculation of radiation beam and absorbtion dose rate generated by the construction materials containing radionuclide's» International Conference Nuclear Science and Its Application, Samarkand, Uzbekistan, September 25-28, 2012, p. 381-382.
- **15.** ***Гаджиева Н.Н., Нурмамедова Ф.Н.*** «Окисление и накопление молекулярного водорода в системе бериллий –вода при радиационно-термическом воздействии » Физикохимия поверхности и защита материалов, 2012, том 48, №4, с.1-6.
- **16.** ***Гаджиева Н.Н., Нурмамедова Ф.Н.*** «Радиационное окисление бериллия в воде» журнал физической химии , 2012, том 86, №9, с.1599-1603.
- **17.** ***Агаев Т.Н., Мамедьярова И.А.*** «Радиационно-гетерогенные процессы в смеси вода-гексан » AMEA-nın xəbərləri, fizika-riyaziyyat və texnika elmləri seriyası, fizika və astronomiya №5, 2012, s.107-113.
- **18.** ***Jafarov Y.D.*** «Mathematical modeling of radiolysis process of water under the impact of low-energy electrons problems of atomic science and technology» ser. Nuclear physics investigations (56), №5, 2012, p.42-47.
- **19.** ***Гаджиева Н.Н., Нурмамедова Ф.Н., Алиев С.М.*** «Кинетика накопления молекулярного водорода в системе бериллий –вода при радиационно-термическом воздействии» V Всероссийская конференция «Актуальные проблеме химии высоких энергий», 23-24 октября, 2012, Москва. с. 5-7.
- **20.** ***Aliyeva-Chichek S., Guliyeva N., Aliyev S., Ahmedbekova S., Ibadov N.*** «Influence of the ionizing radiation on bituminous oil» The V International Conference «PERSPECTIVES OF PEACEFUL USE OF NUCLEAR ENERGY », November 21-23, 2012, p. 128.

# MÖVZU 2: NEFT-BİTUM ƏSASLI ÜZVİ MADDƏLƏRİN RADİASİYAYA DAVAMLILIĞININ TƏDQİQİ

*İş: Neft fraksiyalarının radiasiya stabilliyinin tədqiqi*

**Məsul icraçılar: Texnina üzrə PhD. K.M.Yaqubov,**
**Texnika üzrə PhD. N.Q.Quliyeva**

- Kirmaku mədənlərindən götürülmüş bitumlu neftdən ayrılmış yağ, qətran və asfalten fraksiyalarının radiasiyaya davamlılığı tədqiq olunmuşdur.



**“ENERJİ QƏNAƏTEDİCİ RADİASİYA PROSESLƏRİ” LABORATORİYASI**

**Laboratoriya rəhbəri: k.e.d., prof. İ.İ.Mustafayev**

**Cədvəl 1.** Qazların radiasiya-kimyəvi çıxımlarının orta qiymətləri

| Fraksiya | G, molekul/eV | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | $H_2$ | $CH_4$ | $C_2H_6$ | $C_2H_4$ | $\Sigma C_3$ | $\Sigma C_4$ | $\Sigma C_5$ | $\Sigma C_6$ | $\Sigma$ |
| Yağ | 0,452 | 0,014 | 0,011 | 0,0028 | 0,0068 | 0,0027 | 0,00072 | 0 | 0.49 |
| Qətran | 0,092 | 0,005 | 0,0036 | 0,00082 | 0,0018 | 0,0015 | 0,0003 | 0,0056 | 0.11 |
| Asfalten | 0,0195 | 0,0031 | 0,0048 | 0,0011 | 0,0043 | 0,003 | 0,0006 | 0 | 0.036 |

Şəkil 1. Yağ fraksiyasının radiolizi zamanı flüoran və fenantrenin miqdarının şüalanma vaxtından asılılığı



Şəkil 2. Qətran fraksiyasının radiolizi zamanı flüoran, fenantren və krisenin miqdarının şüalanma vaxtından asılılığı



Şəkil 3. Qətran fraksiyasının radiolizi zamanı benzo(a)antrasen, benzo(a)piren, indeno(123cd)piren, benzo(ghi)perilen və dibenzo(ah)antrasenin miqdarının şüalanma vaxtından asılılığı



Şəkil 4. Yağ və qətran fraksiyalarının radiolizi zamanı ümumi karbohidrogenlərin qatılığının şüalanma vaxtından asılılığı



Şəkil 5. Qətranların İQ-spektrləri









**Alınmış nəticə:**

Bitumlu neftin yağ, qətran və asfalten fraksiyalarına ionlaşdırıcı şüaların  təsiri tədqiq olunmuş və göstərilmişdir ki, udulan dozanın 160 kQr –ə qədər qiymətlərində qətran fraksiyasının tərkibində 2-6 həlqəli politsiklik aromatik karbohidrogenlərin polikondensasiyası prosesi baş verir ki, bu da fraksiyanın radiasiyaya davamlılığını artırır. Dozanın tədqiq olunan intervalında bütün fraksiyalarda digər kateqoriyadan olan karbohidrogenlərin qatılığı ciddi surətdə dəyişmir.

# 2012-ci ildə çap olunmuş elmi əsərlərin siyahısı:

- ***I. Mustafayev.*** Hydrogen and hydrogen containing gas formation at the radiation-thermal clean up of water from oil pollution. "The Black Sea: Strategy for Addressing its Energy Resource Development and Hydrogen Energy Problems". Ed. N. Veziroglu. NATO-Science series. Springer, October-2012, p. 122-126.
- ***2. I. Mustafayev, F. Cicek, S. Aliyeva-Chichek, K. Yaqubov.*** "Desulphurisation of Karaman - Ermenek lignits of Turkey at the accelerated electrons impact". "The Black Sea: Strategy for Addressing its Energy Resource Development and Hydrogen Energy Problems". Ed. N. Veziroglu. NATO-Science series. Springer, October-2012.
- ***3. И.И. Мустафаев, Н.Г. Гулиева, С.Ф. Алиева-Чичек, Р.С. Рзаев.*** Воздействие ионизирующего излучения на битуминозные нефти. Kimya problemləri jurnalı. 2012, № 3.
- ***4. Л.Ю. Джаббарова.*** Общие представления о механизме радиационно-термического превращения битуминозной породы. Azərbaycan kimya jurnalı, №1, 2012, s. 126-132.
- ***5. I.Mustafayev.*** Sub-thermal effects at the radiation-thermal transformations of organic fuels. Int.Conference on Nuclear Science and its Applications. 25-28 Sept 2012, Samarkand, Uzbekistan, p. 339.
- ***6. S. Aliyeva-Chichek, N. Guliyeva, S. Aliyev, S. Ahmedbekova, N. Ibadov.*** Influence of the ionizing radiation on bituminous oil. "Nüvə enerjisinin dinc məqsədlərlə istifadəsi perspektivləri" 5-ci Beynəlxalq konfransı. 21-23 noyabr 2012, Bakı, Azərbaycan, s. 128.
- ***7. L.Y. Cabbarova, Z.O. Nabizade, I.I. Mustafayev.*** Synthetic oil from natural bitumens an alternative power source. "Nüvə enerjisinin dinc məqsədlərlə istifadəsi perspektivləri". 5-ci Beynəlxalq konfransı. 21-23 noyabr 2012, Bakı, Azərbaycan, s.124.

# Stasionar laboratoriya avadanlıqları





# MÖVZU 3: ENERGETİKANIN EKOLOJİ PROBLEM-LƏRİNİN RADİASİYA TEXNOLOGİYALARI VASİTƏSİ İLƏ İŞLƏNMƏSİ

*İş1: Hidrogenin PXB-li yağların fotokimyəvi xlorsuzlaşma prosesinə təsiri*

**Məsul icraçılar: Kimya üzrə PhD. Z.İ.İskəndərova,**

**Kimya üzrə PhD. Ə.H.Qurbanov**

- Tərkibində PXB olan transformator yağlarının UB şüaların təsiri və hidrogenin iştirakı ilə fotolizi öyrənilmişdir. Tərkibində 14 mq/kq qatılıqlı (PXB) olan transformator yağlarının UB-şüaların təsiri və Hidrogenin iştirakı ilə təmizlənmə prosesində pH-ın dəyişməsi və xlorun əmələgəlmə kinetikası öyrənilmişdir.
- Bu il laboratoriyaya
- GC-7890 Xromatoqrafik komplekti “Agilent Texnoloques”(66358,25AZN)
- 2 kanallı UB-Gİ Spektrometri
- Mikroskop stereo
- Reflaktometr
- Elektron tərəzi
- X-F üçün azot generatoru alınmışdır.



**“ƏTRAF MÜHİTİN RADİASİYA KİMYASI” LABORATORİYASI**

**Laboratoriya rəhbəri: k.e.d. M.Ə.Qurbanov**

Şəkil 1. Tərkibində 14 mq/kq qatılıqlı PXB olan transformator yağının fotolizi nəticəsində pH-ın şüalanma müddətindən asılılığı



Şəkil 2. Tərkibində 14 mq/kq qatılıqlı PXB olan transformator yağlarının UB fotolizi



**Şəkil3.** Propil spirtinin iştirakı ilə PXB-li transformator yağlarında PXB-in qatiliğının udulma dozasından asılılığı



**Şəkil 4.** Propil spiriti  və KOH-ın iştirakı ilə PXB-li transformator yağlarında PXB izomerlərinin qatılıqlarının udulma dozasından asılılığı



**Alınmış nəticə:**

Tərkibində 14 mq/kq qatılıqlı PXB olan transformator yağlarının fotolizi prosesinə hidrogenin təsiri öyrənilmiş, göstərilmişdir ki, hidrogenin iştirakı olduqda yağların xlorsuzlaşdırılma dərəcəsi 2 dəfəyədək artır.

## *İş2: Fenolun sulu məhlullarda fotoradiasion parçalanması prosesinin kinetik qanunauyğunluqlarının tədqiqi*

**Məsul icraçılar: E.T.Abdullayev, Ü.A.Quliyeva**

- Fenolun sulu məhlullarının radioliz prosesinə $Al_2O_3$ nanozərrəciklərinin və fenton reaktivinin təsiri öyrənilmişdir.

**Cədvəl.** Fenolun fərdi məhlulunda, **$FeSO_4$** və **$Al_2O_3$** iştirakında çevrilmə kinetikası və çevrilmə proseslərinin radiasiya-kimyəvi çıxımları

| № | Nümunənin tərkibi | | | Şüalanma müddəti, saat | Fenolun şüalanmadan sonrakı qatılığı, mol/l | G(-fenol), molekul /100 eV |
|---|---|---|---|---|---|---|
| | Fenol, mol/l | $Al_2O_3$, q | $FeSO_4$, q | | | |
| 1 | 5* 10(-3) | - | - | 3 | 4,85* 10(-3) | 0,62 |
| 2 | | | | 7 | 4,41 *10(-3) | |
| 3 | 5* 10(-3) | - | 0,1 | 3 | 4,64 *10(-3) | 1,79 |
| 4 | | | | 7 | 3,65 *10(-3) | |
| 5 | 5 *10(-3) | 0,1 | - | 3 | 4,68 *10(-3) | 1,72 |
| 6 | | | | 7 | 3,75 *10(-3) | |

**Alınmış nəticə:**

Fenolun sulu məhlullarının radioliz prosesinə $Al_2O_3$ nanozərrəciklərinin və Fenton reaktivinin təsiri öyrənilmiş və hər iki halda fenolun deqradasiya dərəcəsinin 85-90% olduğu müəyyən edilmişdur.

# Stasionar laboratoriya avadanlıqları





# 2012-ci ildə çap olunmuş elmi əsərlərin siyahısı:

1. Gurbanov M.A., Gurbanov A.G. İskenderova Z.İ. Abdullayev E.T. Gulieva U.A., Radiation Technology Application for Cleaning of Water from Admixtures of Phenol, PAC and PCBs Institute of Nuclear Physics Academy of Sciences of Uzbekistan, International Conference, Nuclear Science and its Application, September 25-28, 2012, Samarkand, Uzbekistan, Tashkent-2012, p.396-398
2. Курбанов М.А., Абдуллаев Э.Т., Искендерова З.И. Радиолитическое Превращение Фенола в Слабых Водных Растворах, Химическая Технология (Сборник Тезисов Докладов), Том 2 под редакцией Ю.А.Заходяевой,В.В.Беловой, Москва, 2012, стр.410-412
3. М.А.Гурбанов, З.И.Искендерова, У.А.Гулиева, А.А.Джаваншировa, Радиолиз Двухфазной Системы Полихлорбифенилы –Вода. Химические Проблемы №2, 2012
4. Ü.A.Quliyeva, E.T.Abdullayev, Foto- və radiasiyanın təsiri ilə suyun fenollardan təmizlənməsi, Материалы VIII Бакинской Международной Мамедалиевской Конференции по Нефтхимии, 3-6 октября 2102, стр.323
5. M.Ə.Qurbanov, E.T.Abdullayev, Ü.A.Quliyeva, Fenolun suda duru məhlulunun radioliz prosesinə metanolun təsiri, The V İnternational Conference Perspectives of Peaceful Use of Nuclear Energy, November 21-23, 2012, Baku, Azerbaijan, səh.127
6. M.Ə.Qurbanov, Ə.H.Qurbanov, S.H.Əliyeva, Ə.Ə. Cavanşirova, Polixlorbifenilli(PXB) transformator yağlarının radiasion xlorsuzlaşdırılma prosesinə müxtəlif kimyəvi agentlərin təsiri, The V İnternational Conference Perspectives of Peaceful Use of Nuclear Energy, November 21-23, 2012, Baku, Azerbaijan, səh.126
7. M.A. Gurbanov, General Principles for Selection of Chemical Process for its Conducting Under Nuclear Reactor Irradiation, The V İnternational Conference Perspectives of Peaceful Use of Nuclear Energy, November 21-23, 2012, Baku, Azerbaijan, səh.111
8. M.A.Qurbanov, Z.İ.İskəndərova, S.M.Şəfiyeva, E.T.Abdullayev, Ə.Ə.Cavanşirova, Hidrogenin PXB-li Yağların Fotokimyəvi Xlorsuzlaşma Prosesinə Təsiri, The V İnternational Conference Perspectives of Peaceful Use of Nuclear Energy, November 21-23, 2012, Baku, Azerbaijan, səh.125
9. Ə.H.Qurbanov, Ə.Ə.Cahangirova, M.Ə.Qurbanov, Ş.M.Şəfiyeva, Polixlorbifenilli Transformator Yağlarının Kalium Hidroksidin İştirakı ilə Təyini, Kimya Problemləri № 4,2011, səh.600-604
10. Курбанов М.А., Джахангирова А.А., Курбанов А.Г., Алиева С.Г., Радиолитическое Дехлорирование ПХБ Содержащих Масел в Присутствии Гидроксида Калия и Пропилого Спирта, Химическая Технология (Сборник Тезисов Докладов),Том 2 под редакцией Ю.А.Заходяевой,В.В.Беловой, Москва, 18-23 марта, 2012, стр.382-384
11. М.А.Курбанов, А.П.Заманова, Применение Метода Двумерного Регрессионного Анализа к Параметрам Радиационной Очистки Сточных Вод, The V İnternational Conference Perspectives of Peaceful Use of Nuclear Energy, November 21-23,2012, Baku, Azerbaijan, стр.98

# MÖVZU 4: TƏBİİ RESURSLARDAN RADİASİYA, FOTOKİMYƏVİ ÜSULLARLA HİDROGENİN ALINMASI

## *İş 1: Suyun 5, 40, 50 nano ölçülü $Al_2O_3$ -ün iştirakı ilə radiolizinin tədqiqi*
**Məsul icraçı: Kimya üzrə PhD. V.K.Kərimov**

- Tədqiqat işində qamma şüalarının təsirindən $Al_2O_3$ - nanohissəciklərin sulu məhlulunun radiolizində hidrogenin alınması və nanohissəciklərin istifadəsi zamanı hidrogenin çıxımının artması əsas məqsəd olaraq qarşıya qoyulmuşdur.



**"ENERJİ TUTUMLU RADİASİYA PROSESLƏRİ" LABORATORİYASI**
**Laboratoriya rəhbəri:**
**Kimya üzrə PhD. H.M.Mahmudov**

**Cədvəl.** Nanohissəciyin əsas parametrləri

| Adı | Təmizliyi, % | Görünüşü | Ən kiçik hissənin orta ölçüsü, nm | Səthin xüsusi sahəsi, $m^2/g$ | Qarışiqlar: *-%, **- ppm | faza miqdarı, % | Suyum miqdarı, % |
|---|---|---|---|---|---|---|---|
| γ- $Al_2O_3$ | 99.9 | Ağ-toz | 5 | 556 | 0.07* | | |
| γ- $Al_2O_3$ | 99.99 | Ağ-toz | 20 | 262.09 | 36.934** | 99.32 | 0.317 |
| α-$Al_2O_3$ | 98+ | Ağ-toz | 40 | | 0.298* | | |
| α-$Al_2O_3$ | 99.99 | Ağ-toz | 50 | 47.73 | 76.35** | 97.35 | 0.311 |
| α- $Al_2O_3$ | 99.99 | Ağ-toz | | | 60.38 ** | 97.26 | 0.25 |

Şəkil1. Su və  d=4,20,40 və 50 nm ölçülü $Al_2O_3$ nanohissəcik sisteminin radiolizindən yaranan molekulyar hidrogenin kinetik asılılığı (Su/nHis=1:100, $m_{his}$=0.01 qram, T=24$^o$C, P=1.04 kQy/saat).



Şəkil 2. Suda müxtəlif ölçülüdə həll olmuş $Al_2O_3$ +$H_2O$ sisteminin radiolizindən yaranan molekulyar hidrogen çıxımının nanohissəciyin ölçüsündən asılılığı ($D_{his.}$:Su=1:50, $m_{kat}$=0.05÷0.1 qram, D=5, 20, 40, 50 nm, T=24°C, P=1.04 kQy/saat, τ=7 saat).



Şək.3. Suyun radiolizindən əmələ gələn molekulyar hidrogenin ($H_2$) götürülmüş maddə kütləsindən (katalizator) asılılığı (d=20 nm, T=24°C, D=21 kQy)



**Alınmış nəticə:**

Təmiz su və müxtəlif ölçülü n-$Al_2O_3$ nanohissəcik katalizatorlarının iştiraki ilə (T=300K, D=0,35Qy/s.) 0÷90 saat müddətində suyun radiolizində katalizator səthində yaranan molekulyar hidrogenin çıxımı G=13.34÷19.82 molekul/100eV intervalında olmuşdur ki, bu da n-$Al_2O_3$ suyun radiolitik parçalanma proseslərində katalitik təsiri ilə izah olunur. Yaranan molekulyar hidrogenin çıxımı müxtəlif ölçülü nano hissəciklərin və sistemə verilmiş suyun miqdarından asılı olaraq artır.

# Stasionar laboratoriya avadanlıqları




UV-Spectrophotometer, Varian (200-800nm)




Qaz xromatoqrafı Varian 490-GC

# 2012-ci ildə çap olunmuş elmi əsərlərin siyahısı:

1. Huseynova S.A., Mahmudov H.M., Mustafayev I.I. Photochemical decomposition of hydrogen sulfide in the gas mixtures and generation molecular hydrogen. Springer SBM, Series: NATO Science for Peace and Security Series - C: Environmental Security-2012
2. Huseynova S.A., Mahmudov H.M., Mustafayev I.I. Photolyses of hydrogen sulfide in gas mixtures. Springer SBM, Series: NATO Science for Peace and Security Series - C: Environmental Security-2012
3. Mahmudov H.M., Karimov V.K., Nasirova Kh.Y. Regularities of radiation catalytic system nana $Al_2O_3$ in the process of water radiolysis. International Conference "Nuclear Science and its Application".Samarkand, Uzbekistan, September 25-28.2012. pp.199-200.
4. Халилов З.З., Махмудов О.М. Изучение образования газовых продуктов из твердой биомассы под действием температуры и ионизирующего излучения. International Conference "Nuclear Science and its Application".Samarkand, Uzbekistan, September 25-28.2012 pp.400-401
5. Huseynova S.A., Mahmudov H.M., Mustafayev I.I., Photolytic decomposition of hydrogen sulfide in the gas mixtures and formation of molecular hydrogen. The V International Conference Perspectives of peaceful use of Nuclear Energy. November 21-23, 2012 Baku, Azerbaijan. pp.49
6. Mahmudov H.M., Kərimov V.K., Nəsirova X.Y.Zəlilov Z.Z, Həsənova S.Ə., Axundova X.Ş., γ-şüalarin təsiri ilə su və $Al_2O_3$ nano hissəcik sisteminin tədqiqi. The V International Conference Perspectives of peaceful use of Nuclear Energy. November 21-23, 2012 Baku, Azerbaijan. p.47-48

## *2. ELMİ İSTİQAMƏT: BƏRK CİSİMLƏRDƏ RADİASİYA EFFEKTLƏRİ VƏ RADİASİYA MATERİALŞÜNASLIĞI*

**II PROBLEM: BƏRK CİSİMLƏRDƏ RADİASİYA STİMULLAŞDIRICI PROSESLƏR**

***II Problem üzrə 3 mövzu, 4 elmi tədqiqat işi yerinə yetirilmişdir.***

# MÖVZU 1: YARIMKEÇİRİCİ, SEQNETOELEKTRİK MATERİALLAR VƏ ONLARIN ƏSASINDA CİHAZLARDA İONLAŞDIRICI ŞÜALARIN TƏSİRİ ALTINDA GEDƏN PROSESLƏRİN TƏDQİQİ

*İş 1: γ-şüaları ilə şüalanmış və şüalanmamış $TlİnSe_2$ birləşməsində ion keçiriciliyinin tədqiqi*

**Məsul icraçı: F.-r.e.d. O.Ə.Səmədov**

- $A^3B^3C_2^6$ qruplu kristallardan olan $TlInSe_2$ birləşməsinin dielektrik nüfuzluluğunun , elektrik keçiriciliyinin temperatur asılılıqlarının və voltamper xarakteristikalarının (VAX) tədqiqatları geniş temperatur oblastında keçiriciliyin, müşahidə olunan nəhəng dielektrik relaksasiyasının və bu sistemlərdə S-şəkilli çevirmə və yaddaş mexanizmlərini müəyyənləşdirməyə imkan verir.
- Müşahidə olunan xüsusiyyətlərin formalaşmasına defektlər əhəmiyyətli töhfə verdiyindən, yuxarıda sadalanan xüsusiyyətlərə 100 Mrad-a qədər dozalı γ-radiasiyanın yaratdığı defektlərin təsiri də öyrənilmişdir.
- Bu il laboratoriyaya alınmış avadanlıqlar:
- Near-Infrared Femtosecond Fiber Laser(49076,10 AZN)
- RLC tester E7-25



**"SEQNETOELEKTRİKLƏRİN RADİASİYA FİZİKASI" LABORATORİYASI**

**Laboratoriya rəhbəri:**
**f-r.e.d., prof. R.M.Sərdarlı**

Şəkil.1. $TlInSe_2$ kristalları üçün elektrik keçiriciliyinin temperatur asılılığı σ(T): *a* – ölçmələr kristalın tetraqonal “*c*” oxu boyunca, *b* – ona perpendikulyar istiqamətdə aparılmışdır.



Şəkil.2. $TlInSe_2$ kristalında yüksək Om-lu haldan kiçik Om-lu hala keçid zamanı çevrilişin baş verdiyi elektrik sahəsinin intensivliyinin temperaturdan asılılığı. 1- 0 Mrad, 2-100 Mrad



Şəkil.3. $TlInSe_2$ kristalının elektrik keçiriciliyinin tempraturdan asılılığı. (a-perpendikulyar, b-paralel) (Əyri 1-3: 0, 50, 100 Mrad şüalanma dozasına uyğundur).



Cədvəl. 1. Şüalanmamış və şüalanmış $TlInSe_2$ kristalının aktivləşmə enerjisi. ($\Delta E\sigma$)

| | **İstiqamət** | **İlkin** | **50 Mrad** | **100 Mrad** |
|---|---|---|---|---|
| **ΔE σ** | **σ‖c** | **0,45 eV** | **0,96 eV** | **0,76 eV** |
| | **σ⊥c** | **0,37 eV** | **0,50 eV** | **0,79 eV** |

**Alınmış nəticə:**

$TlInSe_2$ kristalının elektrik keçiriciliyinin elektrik sahəsinin intensivliyindən və γ - kvantlarının şüalanma dozasından asılılığının tədqiqindən müəyyən olunmuşdur ki, Д=50 Mrad şüalanma dozasında kristalın optik "c" oxuna paralel istiqamətdə, keçiriciliyin maksimal qiyməti şüalanmamış haldakına nəzərən 10 dəfə artır, superion hala keçid temperaturu isə aşağı temperatur oblastına tərəf sürüşür. Elektrik sahəsinin intensivliyinin və şüalanma dozasının kritik qiymətləri təyin edilmişdir.

Göstərilmişdir ki, γ-radiasiyanın təsiri ilə $Tl^+$ alt qəfəslərində kationların nizamsızlıq dərəcəsi artır.

# 2012-ci ildə çap olunmuş elmi əsərlərin siyahısı:

- 1. Сардарлы Р.М., Самедов О.А., Абдуллаев А.П. и др. Ионная проводимость кристаллов $TlGaTe_2$ облученных γ – квантами // AMEA-nın Xəbərləri. Fizika-riyaziyyat və texnika elmləri seriyası. 2012, № 2 s. 49-54.
- 2. Sardarly R.M., Gojaev E.M., Samedov O.A., Abdullayev A.P. et al. Dielectric properties of $TlGaTe_2$ crystals irradiated by γ – quantums // "Fizika", 2012, v. XVIII, № 2, p. 14-17.
- 3. Бадалов А.З., Сардарлы Р.М., Самедов О.А., Абдуллаев А.П. и др. Диэлектрическая релаксация в кристалле $TlGaTe_2$ подвергнутого радиационному воздействию // Milli Aviasiya Akademiyasının Elmi Əsərləri. 2012, № 2, с.2-14.
- 4. Sardarly R.M., Gojaev E.M., Samedov O.A., Abdullayev A.P. et al. Features of conduction and Poole-Frenkel effect in chain $TlInTe_2$ and $TlInSe_2$ // Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Texniki Universiteti "Elmi əsərlər" jurnalı. Fundamental elmlər seriyası. 2012, № 2, Cild XI (42) s. 57-60.
- 5. Сардарлы Р.М., Самедов О.А., Абдуллаев А.П. и др. Электропроводность, вольтамперные характеристики и эффект Пула-Френкеля в кристаллах $TlFeS_2$ // AMEA-nın Xəbərləri. Fizika-riyaziyyat və texnika elmləri seriyası. 2012, № 5, s.21-25.
- 6. Сардарлы Р.М., Самедов О.А., Абдуллаев А.П. и др. Проводимость по локализованным состояниям тетрагональной и моноклинной модификаций TlS // Journal of Qafqaz University, 2012, № 33, p.
- 7. Sardarly R.M., Samedov O.A., Abdullayev A.P. et. al. Features of conduction and Poole-Frenkel effect in chain of $TlInTe_2$ and $TlInSe_2$ / 8th International Conference on "Technical and Physical Problems of Power Engineering" Ostfold University College Fredrikstad, Norway, 5-7 September 2012, № 67, pp. 327-331.
- 8. Sardarly R.M., Samedov O.A., Abdullayev A.P. et. al. Superionic conductivity and switching with memory in γ–irradiated $TlInSe_2$ crystals / International Conference «Nuclear Science and its Application». Samarkand, Uzbekistan. September 25-28, 2012, p. 191-192.
- 9. Sardarly R.M., Samedov O.A., Abdullayev A.P Dielectric properties of γ – irradiated $TlInTe_2$ crystals. International Conference «Nuclear Science and its Application». Samarkand, Uzbekistan. September 25-28, 2012, p. 191-192.
- 10. Samedov O.A, Dadashov I.Sh, Samedov S.F, Salmanov F.T, Bayramov A.A. et.al. Influence of gamma irradiation on dielectric properties of $TlInS_2$ doped by ytterbium/ Samarkand, Uzbekistan. September 25-28, 2012, p. 191-192.
- 11. Samedov O.A, Dadashov I.Sh, Samedov S.F, Y.Q. Nurullayev., E.Z. Aliev., M.M. Seyidov. Influence of gamma irradiation on dielectric properties of $TlInS_2$<Sm>/ The V International Conference «Perspectives of Peaceful USE of Nuclear Energy». Baku, Azerbaijan. November 21-23, 2012, p. 41.
- 12. Sardarly R.M., Samedov O.A., Abdullayev A.P. et. al. Superionic conductivity and switching with memory in γ – irradiated $TlInSe_2$ crystals. The V International Conference «Perspectives of Peaceful USE of Nuclear Energy». Baku, Azerbaijan. November 21-23, 2012, p. 40.
- 13. Sardarly R.M., Samedov O.A., Abdullayev A.P. et. al. Electric properties of γ – irradiated $TlInTe_2$ crystals. The V International Conference «Perspectives of Peaceful USE of Nuclear Energy». Baku, Azerbaijan. November 21-23, 2012, p. 43.
- 14. Наджафов А.И., Алекперов О.З., Гусейнов Г.Г., Абдуллаев А.П. Получение и свойства твердого раствора $(TlInSe_2)_{0,96}Se_{0,04}$. Неорганические материалы. 2012, т.48, № 12, с.1309-

# MÖVZU 2: LAYLI YARIMKEÇİRİCİLƏRİN (GaS, CaSe) XASSƏLƏRİNƏ PROTON ŞÜALARININ TƏSİRİNİN TƏDQİQİ

*İş: Protonların laylı yarımkeçiricilərin (GaS, GaTe, GaSe) elektrik və optik xassələrinə təsirinin tədqiqi*

**Məsul icraçı: Fizika üzrə PhD. T.B.Tağıyev**

- Proton selinin kristalların foto və elektrik xassələrinə təsirini tədqiq etmək üçün GaS və GaSe laylı kristallari yetisdirilmişdir.
- Elektron mikroskopik tədqiqatlar nəticəsində GaSe kristallarinda olan defektlərin qatılığı işdə $10^{17}$ $sm^{-3}$ qiymətləndirilmişdir.
- Yetişdirilmiş kristal nümunələri şəkil1-2 –də göstərilmişdir.
- Gas və GaSe kristallarında RƏS tədqiq edilmiş və alınan nəticələr şəkil 3 və 4-də göstərilmişdir.
- Referford və Kombinasion səpilmə spektrlərinin təhlili nəticəsində müəyyən edilmişdir ki, müxtəlif şüalanma dozalarında ($10^{15}$ və 5 $10^{15}$ $sm^{-2}$) implantasiya olunmuş ${}_{1}^{1}H$ ionlarının (140 keV) təsiri nəticəsində nümunələrin bircinsliliyi nümunələrin səthində və həcmində saxlanılır. Protonlarla şüalandırılmış nümunələrin fotoelektrik xassələrində dəyişiklik müşahidə olunmur. (şəkil 5)



**"YARIMKEÇİRİCİLƏRİN RADİASİYA FİZİKASI" LABORATORİYASI**

**Laboratoriya rəhbəri:**

**f-r.e.d., prof. R.S.Mədətov**

**Şək.1.** $GaS_{1-x}Se_x$ (x=0÷1) tərkibli bərk məhlul kristallari.
1- $GaS_{0,,1}Se_{0,9}$, 2- $GaS_{0,25}$ $Se_{0,75}$, 3- $GaS_{0,2}$ $Se_{0,8}$, 3- $GaS_{0,3}Se_{0,7}$,
4- GaSe, 5- $GaS_{03}$ $Se_{0,7}$ , 6- $GaS_{0,05}Se_{0,95}$.



**Şək.2.** $GaS_{1-x}Se_x$ (x=0÷1) tərkibli bərk məhlul kristalları.
1- $GaS_{0,35}Se_{0,65}$, 2- $GaS_{0,15}Se_{0,85}$, 3- $GaS_{0,9}Se_{0,1}$, 4- GaS.



**Cədvəl.** $GaS_{1-x}Se_x$ (x=0÷1) tərkibli bərk məhlul kristallarinın qəfəs parametrləri

| **Tərkib** | **Qəfəs parametrləri, Å** | | **Elementar qəfəsdəki molek.sayı, *Z*** |
|---|---|---|---|
| | ***a*** | ***c*** | |
| GaS | **3,57** | **15,26** | **4,0** |
| **$GaS_{0,6}Se_{0,4}$** | **3,65** | **15,78** | **4,0** |
| **$GaS_{0,25}Se_{0,75}$** | **3,70** | **15,82** | **4,0** |
| **$GaS_{0,2}Se_{0,8}$** | **3,72** | **15,90** | **4,0** |
| **GaSe** | **3,75** | **15,99** | **4,0** |

Şəkil 3. GaS nümunəsinin rezerford əks səpilmə spektrləri



Şəkil 4. $_1^1H$ ionları ilə implantasiya olunmuş GaS nümunəsinin rezerford əks səpilmə spektrləri (doza$10^{15}$at./$sm^2$)



**Şəkil 5.** GaS (1), GaSe (2) və $GaS_{0,2}Se_{0,8}$ (3) tərkibli monokristal nümunələrinin 300 K temperaturda çəkilmiş fotokeçriciliyinin kvant effektivliyinin (*η*) spectral asılılığı.



**Alınmış nəticə:**

- 1. Мустафаева Р.М. Шахбазов Ш.В. Рзаев П.Ф. Махмудова Т.А Использование солнечной энергии в термохимический реакциях. «Bərpa olunan enerji mənbələrindən istifadə olunma problemləri və perespektivləri» Beynəlxalq konfransı 2012-ci il 29-30 noyabr. Azərbaycan Texniki Universiteti.
- 2. Ş.D. Şahbazov, R.M. Mustafayeva T.Ə. Mahmudova "Külək-Günəş energetik qurğuları əsasında fasiləsiz enerji təminatı sisteminin prespektivləri" Energetikanın Problemləri.
- 3. Salamov O.M., Pnevmatik akkumulyatora malik külək nasos quğusu.
- 4. Salamov O.M., Salmanova F.Ə., Rzayev P.F., Rzayev E.F. Günəş suqızdırıcı sistemlərdə istilik tələli yastı günəş kollektorlarından istifadənin imkanları
- 5. O.M.Salamov, F.F.Əliyev. İkişüşəli, şəffaf örtüklü günəş kollektorunun optik və energetik xarakteristikalarına tozun və kölgələnmənin təsirinin təyin edilməsi. Energetikanın problemləri, №1, 2012, S.77-89.
- 6. A.M.Həşimov, O.M.Salamov, F.F.Salmanova, P.F.Rzayev. Qaynar su və istilik təminatı məqsədilə alternativ enerji mənbələrindən istifadənin perspektivləri. Energetikanın problemləri, №2, 2012, S.70-79.
- 7. O.M.Salamov, A.M.Hashimov. Underground Metallic Equipment's Cathodic Protection from Electrochemical Corrosion by Solar Energy. Natural Cataclysms and Global Problems of the Modern Civilization. Proceedings of the World Forum - International Congress, September 19-21, 2011 - Istanbul, Turkey, SWB, London, 2012, p.475-484.
- 8. A.H.Abdullayev, O.M.Salamov, Ə.A.Salamov. Sənaye miqyaslı külək elektrik mühərriklərində paket tipli multiplikatorun tətbiqinin qurğunun iqtisadi və energetik cöstəricilərinə təsiri. Energetikanın problemləri, №3, səh.47-57.
- 9. A.M.Həşimov, O.M.Salamov. Alternativ enerji mənbələrindən istifadə məsələsində hidrogen enrgetikasının rolu. «Nüvə enerjisinin dinc məqsədlərlə istifadəsinin perspektivləri» V Beynəlxalq Konfransı, 21-23 Noyabr, 2012-ci il, Bakı, Azərbaycan, AMEA Radiasiya Problemləri İnstitutu, S. 129-131.
- 10. O.M.Salamov, A.T.Rəhimov, İ.Ə.Hacıhəsənov, A.E Abduləliyev. Günəş-fotoelektrik elektroliz qurğusunun iş rejiminin avtomatik tənzimlənməsi yolları. Beynəlxalq Konfrans, AzTU, 23-25 Dekabr 2012-ci il, Bakı, Azərbaycan O.M.Salamov, A.H.Abdullayev, Ə.A.Salamov. Qanadların həmlə bucağının avtomatik dəyişdirilməsinin külək mühərrikinin iş rejiminin optimallaşdırılması prosesində rolu. «Maşınşünaslıq» Beynəlxalq elmi-texniki jurnalı, № 2, 2012-ci il - dərc üçün qəbul olunub.
- 11. O.M Salamov, K.D.Sultanova, A.A.Qəribov. Biokütlələrin və üzvi tullantıların qazlaşdırılması üçün günəş qurğusu. Azəebaycan Respublikasının Patenti № İ 2012 0093, Dövlət reyesterində qeyd olunub: 01.11.2012.
- 12. F.Q.Əliyev, O.M.Salamov. Şaquli fırlanma oxlu külək mühərriki, a 2009 0105 saylı iddia sənədi üzrə qeydiyyata götürülmüş ixtiraya dair məlumatın dərci haqqında Qərar, AR SM və PRK, 11.05. 2012-ci il.
- 13. F.Q.Əliyev, O.M.Salamov. Qaynar su və istilik təminatı üçün günəş qurğusu. a 2009 0112 saylı iddia sənədi üzrə qeydiyyata götürülmüş ixtiraya dair məlumatın dərci haqqında Qərar, AR SM və PRK, 25.06. 2012-ci il.
- 14. E.A.Rəhimov, O.M.Salamov, Ə.H.Tağızadə. Səsboğucu sistemli elektron avtomobil keşikçisi. a 2011 0199 saylı iddia sənədi üzrə qeydiyyata alınmış ixtira haqqında AR SM və PDK-nin İlkin Ekspertizasının müsbət nəticəsi haqqında Bildirişi, 07.02. 2012-ci il.
- 15. O.M.Salamov, V.H.Həsənov. İstilik tələli yastı günəş kollektoru. a 2012 0001 saylı iddia sənədi üzrə qeydiyyata alınmış ixtira haqqında AR SM və PDK-nin İlkin Ekspertizasının müsbət nəticəsi haqqında Bildirişi, 02.05. 2012-ci il.
- 16. O.M.Salamov, N.S.Məmmədov. Suyun mexaniki enerjisini elektrik enerjisinə çevirmək üçün qurğu. a 2012 0005 saylı iddia sənədi üzrə qeydiyyata alınmış ixtira haqqında AR SM və PDK-nin İlkin Ekspertizasının müsbət nəticəsi haqqında Bildirişi, 17.02. 2012-ci il.
- 17. O.M.Salamov, A.H.Abdullayev, Ə.A.Salamov. Külək çarxının qanadlarını çevirən mexanizm. A 2012 0009 saylı iddia sənədi üzrə qeydiyyata alınmış ixtira haqqında AR SM və PDK-nin İlkin Ekspertizasının müsbət nəticəsi haqqında Bildirişi, 06.02.2012-ci il.
- 18.O.M.Salamov. Külək nasos qurğusu. a 2012 0017 saylı iddia sənədi üzrə qeydiyyata alınmış ixtira haqqında AR SM və PDK-nin İlkin Ekspertizasının müsbət nəticəsi haqqında Bildirişi, 01.03.2012-ci il.
- 19.O.M.Salamov. Külək çarxının qanadlarını çevirmək üçün mexanizm. a 2012 0020 saylı iddia sənədi üzrə qeydiyyata alınmış ixtira haqqında AR SM və PDK-nin İlkin Ekspertizasının müsbət nəticəsi haqqında Bildirişi, 01.03.2012-ci il.
- 20. Şahbazov Ş.C., Mustafayeva R.M., Mahmudova T.Ə. Külək-Günəş energetik qurğuları əsasında fasiləsiz enerji təminatı sisteminin perspektivləri, Energetikanın problemləri, N3, səh.58-61

# Birləşmiş Nüvə tədqiqatları İnstitutunun Nüvə Problemləri laboratoriyası ilə birlikdə “Nüvə şüalanma detektorları” üzrə aparılmış elmi-tədqiqat işləri haqda HESABAT

**Məsul icraçı: F-r.e.d., prof. R.S.Mədətov, k.e.i. Əhmədov F.İ.**

- Ilk dəfə olaraq mikropikselli selvari fotodiodların (MPSF) bərpa olunma müddətini xarakterizə edən fiziki kəmiyyətlər öyrənilmişdir. Məlum olmuşdur ki, gücləndirmə əmsalı artdıqca pərpa olunma müddəti azalır. Gücləndirmə əmsalının aşağı qiymətlərində selvari oblasta daxil olan elektronlar gücləndirilir. Yaranan elektronların əksəriyyəti piksellərə toplanır və çox az hissəsi piksellərdən daşaraq bir başa katoda axır. Piksellərə toplanan elektronlar başlanğıcda baryerin hündürlüyünün az olması səbəbindən sürətlə boşalır və daha sonra baryerin hündürlüyünün artması nəticəsində elektronların axını ləngiyir. Gücləndirmə əmsalının böyük qiymətlərində isə selvari oblastda yaranan elektronların əksəriyyəti ani olaraq katoda axır və çox kiçik hissəsi pikselə toplanır. Bu səbəbdən də gücləndirmə əmsalı artdıqca bərpa olunma müddəti azalmışdır
- Selvari diodların gücləndirmə əmsalını geniş gərginliklər intervalında təyin etməyə imkan verən yeni impuls metodu hazırlanmışdır. Məlum olmuşdur ki deşilmə gərginliklərindən yuxarı gərginliklərdə fotosiqnalın impuls metodu ilə tapılan gücləndirmə əmsalının qiymətləri zəif işıq seli metodu ilə tapılan qiymətlərdən 30% fərqlənir. Gücləndirmə əmsalının qiymətləri arasındakı fərqin mövcüd olması, aşağı gərginliklərdə foto qeyd etmə efektivliyi ilə bağlıdır.
- 150MeV enerjili protonların MPSF diodlara təsiri də öyrənilibdir. MPSF-3B və MPSF-3N1P tipli diodları $5*10^{10}$proton/cm$^{2}$ dozaya qədər şüalandırdıqdan sonra işləmə gərginliyində MPSF-3N1P tipli diodların qaranlıq cərəyanı və RMS küyü MPSF-3B tipli diodların qaranlıq cərəyanı və RMS küyü ilə müqayisədə 51% və 58% daha çox dəyişdiyi müəyən edilib. Məlum olmuşdur ki, piksellərin sıxlığı artdıqca MPSF diodların radiasiya davamlılığı yüksəlib
- LFS sintilyatorlar və selvari fotodiodlar əsasında hazırlanmış qeydedicilərlə alfa zərrəciklərin və qamma şüaların qeyd edilməsi öyrənilib. MPSF diodun işləmə gərginliyində Am-241 izatopundan buraxılan 5,5MeV enerjili alfa zərrəcikləri üçün 8,6% enerji ayırd etməsi alınıbdır. 60keV və 662keV enerjili qamma şüaları üçün enerji ayırd etməsi ~30% və 11% olmuşdur. Alınmış nəticələr göstərir ki, bu tip detektorlar ərazilərin radiasiya monitorinqi, dozimetriya, alfa-qamma-neytron detektorlarının , narkotik və partlayıcı maddələrin tapılmasında yeni detektorların inkişaf etdirilməsində istifadə oluna bilər.

Şək. 1. MPSF-3A (2-ci əyri) və MPSF-3N (1-ci əyri) tipli selvari diodların bərpa olunma müddətlərinin gücləndirmə əmsalından asıllığı



Şəkil. 2. MPSF-3N1P tipli selvari fotodiodların qaranlıq cərəyanının 150MeV enerjili proton dozasından asıllığı 1- şüalanmadan əvvəl, 2- $1*10^{10}$proton/cm$^2$, 3- $5*10^{10}$proton/cm$^2$



Şəkil. 3. Cs-137 radioizatopundan buraxılan 662keV enerjili qamma şüasının LFS-3 (2*2*10mm$^3$) sintilyatoru və MPSF diod vasitəsi ilə alınan spektri.



## Dubna Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun İ.M.Frans adına Neytron fizikası laboratoriyasının AMEA Radiasiya Problemləri İnstitutu ilə birlikdə İBR-2M modernizə olunmuş Tədqiqat Nüvə Reaktorunun kinetik parametrlərinin hesablanması və təcrübi tədqiqi üzrə aparılmış elmi-tədqiqat işləri üzrə
## H E S A B A T

**Məsul icraçı: k.e.i.Taibov L.Ə., fizika üzrə PhD R.N.Mehdiyeva**

Istər modernizə olunmuş İBR-2M, istərsə də İBR-2 reaktorlarında enerji impulsunun fluktasiyasını yaradan iki səbəb var:

- Bölünmə prosesinin və neytron artımının stoxastik xarakter daşıması
- Xarici reaktivliyin fluktuasiyası

Modernizə olunmuş İBR-2 impuls reaktorunda enerji impulsunun stoxastik fluktuasiyaları nəzərə çarpaçaq dərəcədədir (20%) və onlar reaktorun dinamikasına, reaktorun idarəolunma prosesinə, işə salınma prosesinə və bir sıra təcrübi qurguların fəaliyyətinə mənfi təsir göstərir. Digər tərəfdən isə enerji implusunun stoxastik fluktuasiyalarının mövcudlugunun müsbət tərəfləri var, belə ki, fluktuasiyaların tədqiqi reaktorun aktiv zonası üçün əsas parametrlər olan ani neytronların yaşama müddəti, spontan neytronlar mənbəyinin intensivliyini, reaktorun gücünü təyin etməyə imkan verir. Hesabat ilində modernizə olunmuş İBR-2 impuls reaktorunun enerji impulsunun stoxastik fluktuasiyaları və İBR-2M reaktorunun enerji impulusunun forması, eləcə də enerji impulslarının paylanma sıxlıgı tədqiq olunmuşdur.

Enerji impulusunun forması və enerji impulslarının paylanma sıxlıgı reaktorun fiziki işə salınma mərhələsində tədqiq olunmuşdur. Təcrübi nəticələrin analizi nəticəsində ani neytronların yaşama müddəti təyin edilmişdir . Göstərilmişdir ki, təcrübi nəticələr hesablanmış nəticələrə çox yaxındır.

Modernizə olunmuş İBR-2M reaktorunun kinetik parametrləri olan gecikən neytronların effektiv payı və ani neytronların yaşama müddəti hesablanmış, eləcə də bu parametrlərlə yanaşı sponton neytronlar mənbəyinin intensivliyi və reaktorun mütləq gücü stoxastik fluktuasiyaların tədqiqi metodu ilə qiymətləndirilmişdir.

Şəkil 1. İBR-2M reaktorunda impuls enerjisinin paylanma sıxlığının hesablanma nəticələri



Şəkil 2. İBR-2M reaktorunda bəzi orta cüclərdə impuls enerjilərinin paylanma sıxlığının normallaşması



# RADIASIYA CIHAZQAYIRMA ŞÖBƏSININ HESABATI

## Məsul icraçı: Süleymanov S. S.

- Şöbənin əməkdaşları tərəfindən yaradılmış portativ dozimetr-radiometri radiasiya fonunu və udulma dozasını ölçmək, ölçülən kəmiyyətləri və ölçmə müddətini yadda saxlamaq və informasiyanı displeyə göndərmək imkanına malik daxili qamma şüalanma detektoru olan monoblokdan ibarətdir. Cihazın qidalanması akkumlyator vasitəsilə həyata keçirilir. Üst paneldə displey və idarəetmə düymələri yerləşir.Cihaz-detektor, yüksək gərginlik bloku və hesablama sistemindən ibarətdir. Detektor - NaI (Tl) əsaslı monokristaldan (ssintilyator) və FEU-85 tipli fotoelektron gücləndiricidən ibarətdir. Ssintilyatorun üzərinə düşən qamma kvantları işıq impulsuna (fotona) çevrilir və həmin fotonlar fotogücləndiricinin katodunun səthinə düşərək, onun səthindən çıxan elektronlar güclndirildikdən sonra elektrik impulsuna çevrilir. Fotoelktron gücləndirisi yüksək gərginlikli mənbədən qidalanır.
- Yüksək gərginlikli blok akkumlyatorun gərginliyini 1000 V–a qədər qaldırır. Hesablama sistemi ATMEQA 128 tipli mikroprosessor bazasında yaradılmışdır. Hesablama sistemi detektordan gələn impulsları saymaq və onları displeyə çıxarmaq üçün nəzərdə tutulur. Displeyə iş prinsipindən asılı olaraq ölçmə müddəti ilə birlikdə radiasiya fonu və udulma dozası haqqında məlumatlar verilir.
- Beləliklə NaI(Tl) əsasında hazırlanmış dozimetr-radiometrin yüksək həssaslığa və geniş enerji diapozomuma malik olmasını nəzərə alaraq demək olar ki, çirklənmiş ərazilərin monitorinqi və şüalanmanın spektral analızi zamanı istifadə etmək olar.
- İnstitutda 10 ədəd portativ dozimetr-radiometr hazırlanmışdır. Qurğular Ramanı və Suraxanı qəsəbələrində çirklənmiş ərazilərin monitorinqində istifadə edilmişdir.
- Son illərdə, xüsusən Çernobıl qəzasından sonra ionlaşdırırcı şüalanmanın doza gücünün və radioaktiv elementlərinin aktivliyinin təyini və onların miqrasiyası müəyyənləşdirilməsi aktual məsələyə çevrilmişdir. Müxtəlif atmosfer prosesləri, antropogen proseslər ətraf mühütdə radiasiya fonunun qiymətinə təsir edir. Radiasiya fonunun qiymətində baş verən dəyişiklikləri müşahidə etmək üçün radiasiyanı avtomatik detektə edən erkən xəbərdarlıq sisteminin quraşdırılması radiasiya təhlükəsizlik sahəsində aktual məsələlərdən biridir.
- Portativ doizimetr-radiometrin bazasında Radiasiya Problemləri İnstitutunun istehsalı olan radiasiyani avtomatik detektə edən erkən xəbərdarliq sistemi müxtəlif rejimlərdə işləyə bilib, ionlaşdırırcı şüalanmanın doza gücünü təyin etmə imkanına malikdır.
- Cihaz 1÷200000 μR/saat intervalında işləyən ssintilyasiya tipli NaI(Tl) detektoruna malikdir. Erkən xəbərdarliq sistemi 10 dəq intervalla qamma ionlaşdırırcı şüalanmasının doza gücünü ölçüb çihazın daxili yaddaşında saxlamaq və GSM rabitə kanalı vasitəsi ilə İnstitutda yerləşdirilmiş baza blokuna ötürmə imkanına malikdir. Qurğu həm də ətrafda ionlaşdırırcı şüalanmanın doza gücü yol verilən həddi keçdikdə, GSM rabitə kanalı vasitəsi ilə mobil telefona zəng vurub doza gücünün qiymətini bildirmək imkanına malikdir.
- Növbəti il ərzində ilkin olaraq 8 ədəd radiasiyani avtomatik detektə edən cihazın hazırlanaraq Respublikanın bəzi bölgələrində quraşdırılması nəzərdə tutulub.



Portativ doizimetr-radiometrin təsviri




Radiasiyani avtomatik detektə edən cihazın təsviri

# 5. RESPUBLİKANIN ATOM ENERJİSİ ÜZRƏ BEYNƏLXALQ AGENTLİK (AEBA), MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNİN “ATOM ENERJİSİNDƏN DİNC MƏQSƏDLƏRLƏ İSTİFADƏ” ÜZRƏ DÖVLƏTLƏRARASI KOMİSSİYASI, NATO İLƏ ELMİ VƏ ELMİ-TEXNİKİ TUTUMLU MƏSƏLƏLƏRDƏ ƏLAQƏLİLİK MİSSİYASI SAHƏLƏRİNDƏ İŞLƏR

# RADİASİYA PROBLEMLƏRİ İNSTİTUTUNUN AZƏRBAYCAN RESPUBLİKASINI TƏMSİL ETDİYİ QURUMLAR

- 1) Beynəlxalq Nüvə Məlumatlar Sistemi (AEBA, İNİS)
- 2) MDB ölkələri arasında Radiobiologiyanın müasir problemləri üzrə beynəlxalq Elmi Şura
- 3) MDB-də Nüvə enerjisindən dinc məqsədlərlə istifadə üzrə dövlətlərarası Beynəlxalq Komissiya

# RADİASİYA PROBLEMLƏRİ İNSTİTUTUNDA FƏALİYYƏT GÖSTƏRƏN BEYNƏLXALQ QURUMLAR

## 1. FİZİKİ ƏTRAF MÜHİTİN TƏDQİQİ MƏRKƏZİ – ABŞ CRDF FONDU

"Ətraf Mühitın Fizikası və Kimyası Mərkəzi", ABŞ mülki elmi tədqiqatlara dəstək üzrə regional mərkəzlər proqramı (RESC) çərçivəsində, Milli Elmlər Akademiyası Radiasiya Problemləri İnstitutunun ABŞ Mülki Araşdırmalar və İnkişaf Fondu (CRDF) arasındakı NR2-1021 müqaviləsi əsasında təşkil olunmuşdur. Ümumilikdə CRDF keçmiş Sovet ölkələrində 22 belə mərkəz təsis etmişdir ki, bu mərkəz onların arasında ən müvəffəqiyyətlilərindən biri hesab olunur.



- İnstitutun 2002-ci ildə CRDF fondu və NATO Elm fondundan aldığı qrantlar mərkəzə artıq 2003-cü ildə regionda ən müasir laboratoriya səviyyəsinə çatmağa imkan verib. CRDF fondu şərtləri çərçivəsində elmi komandaların inkişafında eksperimental bir qurum olan mərkəzin əsas fəaliyyət istiqamətləri bunlardır:
- Özünü maliyyələşdirmə əsasında Radiasiya Problemləri İnstitunun, Azərbaycanın dövlət strukturalarının beynəlxalq səviyyəli laboratoriya analitik tapşırıqlarına hazır olan laboratoriya potensialının davamlı inkişafı;
- Azərbaycan və regionda ətraf mühitin idarə olunmasında elmi cəhətdən əsaslanmış analitik məlumatların tətbiqi, zərərli tullantıların emalı və təmizləmə texnologiyalarının inkişafına yönəlmiş ətraf mühit fizikası və kimyası elmi layihələrinin təşkili və icrası;
- Mərkəzin Ətraf Mühit Fizikası və Kimyası elmi məktəbinin inkişaf etdirlməsi istiqamətində inkişafının, personalın layiqli iş şəraiti ilə təmini;
- CRDF, NATO SfP, ATƏT, UNEP, UNDP, STCU və digər beynəlxalq təşkilatların maliyyələşdirdiyi ekoloji layihələrdə iştirak;
- Yerli və beynəlxalq sifarişçilərə kommersiya müqavilələri çərçivəsində laboratoriya analitik xidmətlərin, ekoloji tədqiqatlar və konsaltinq xidmətlərinin təşkili və icrası. Elmi strukturun təmamilə büdcədən maliyyələşməsi etapından büdcəyə əhəmiyyətli vergilər ödəyən bir quruma çevrilməsinin təmini.



- Mərkəzin elmi və tədqiqat fəaliyyətində əsas hədəflərdən biri neft sənayesinin ekoloji problemlərinin həllidir. Ətraf mühitin ilkin tədqiqi, ətraf mühitə təsirin qiymətləndirilməsi, tullantıların idarə olunması və təmizləmə texnologiyaları üzrə tapşırıqlar mərkəzin təşkilati strategiyasınıı müəyyən edir. Lakin mərkəzin unikal statusu istər milli, istərsə də xarici elmi universitet və mərkəzlərlə birgə elmi layihələrdə iştirakı da priorotet istiqamət edir.
- NATO SfP 977991 layihəsi və eləcədə UNDP, UNEP və Xəzər Ekoloji Proqramı layihələri zərərli maddələrin Kür və Arazla Xəzər dənizinə daşınması proseslərinin öyrənilməsi kimi Azərbaycan üçün çox mühüm olan problemlərin tədqiqinə istiqamətlənib. Bu mərkəzin fəaliyyətinin 50%-dən artığını müəyyən edir və artıq mərkəz milli və beynəlxalq proqramlara yaxından inteqrasiya olunub.
- Mərkəzin idarəetmə olunması ISO 9001:2001 keyfiyyəti idarə etmə sisteminə uyğunlaşdırılmışdır. Mərkəz analitikada keyfiyyətə nəzarət və təminat parametrlərinin tam icrası və protokollaşdırılmasını təmin etmişdir ki, bu da elmi layihələrdə dəqiq nəticələrin təbiətini müəyyənləşdirməklə yanaşı, ümimilikdə etibarlı servisin özülünü təşkil edir. Mərkəz Azərbaycan Respublikası Standartlaşma və Patent Agentliyi ilə yaxından əməkdaşlıq edir və milli akreditasiya olunmuş sınaq laboratoriyasıdır. Mərkəzin məqsədi, sifarişçilərin tələb və şərtlərini ödəyəcək çöl işləri və labiratoriya servisləri üzrə ən yüksək etibarlılıq və keyfiyyət nümüyiş etdirməkdir. Mərkəzdə təcrübəli sahə işləri personalı fəaliyyət göstərir ki, onlar ən müxtəlif növ nümunəgötürmə texnologiyaları və metodologiyaları tətbiq etməklə ətraf mühitin monitorinqini icra edirlər. Eyni zamanda ətraf mühit proseslərinin modelləşməsi və məlumat bazaları inkişaf etdirilməsi üzrə mütəxəssislər ətraf mühit tədqiqi üzrə layihələrin bütün mərhələlərini idarə etməyə imkan verir.

Mərkəz 2011-ci ildə Avropanın İSO 17025 laboratoriya akreditasiyası sertifikatını almışdır. Belə ki, laboratoriya tərəfindən yerinə yetirilən analizlər bütün Avropa ölkələri tərəfindən qəbul edilir.
Mərkəzin hazırki fəaliyyəti və inkişafı üçün dünyada lider olan tədqiqat və inkişaf mərkəzləri ilə yaxın əməkdaşlıq da həlledicidir:
Oreqon Dövlət Universiteti (ABŞ)
Florida Dövlət Universiteti (ABŞ)
Antverpen Universiteti (Belçika)
Norvegiya Elm və Texnologiya Universiteti
Təbii Sərvətlər və Tətbiqi Həyat Elmləri Universiteti (Avstriya)
Boloniya Universiteti (İtaliya)
ABŞ Geologi Tədqiqatlar Denver Federal Mərkəzi
ABŞ Geologi Tədqiqatlar Saint Petersburg Mərkəzi



# 2. BEYNƏLXALQ NÜVƏ İNFORMASİYA MƏRKƏZİ – İNİS AEBA

Azərbaycan Milli Elmlər Akademiyası Radiasiya Problemləri İnstitutu ilə Atom Enerjisi üzrə Beynəlxalq Agentlik (AEBA) arasında mövcud olan əməkdaşlıq 2002-ci ildən, AEBA-nın Beynəlxalq Nüvə Məlumatlar Sisteminin (International Nuclear İnformation System – İNİS) Azərbaycan bölməsinin yaradılması layihəsindən başlamışdır. Iki illik layihə çərçivəsində Radiasiya Problemləri İnstitutu nəzdində AEBA-nın Beynəlxalq Nüvə Məlumatlar Sistemi Mərkəzi yaradılmışdır. Mərkəzin fəaliyyəti nəticəsində Bakı Dövlət Universitetinə və AMEA-nın Fizika İnstitutuna AEBA-nın nüvə məlumatlar bazasına daxil olma imkanı yaradılmışdır. 2003-cü ildən başlayaraq hər il mütəmadi olaraq Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin Beynəlxalq Nüvə Məlumatlar Sisteminə Azərbaycan alimlərinin nüvə və nüvə ilə əlaqədar sahələri əhatə edən 300 məlumatı göndərilmişdir. Bu məlumatlar AEBA-nın məlumatlar bazasında yerləşdirilmişdir və dünya alimləri atom enerjisinin dinc məqsədlərlə istifadəsi sahəsində Azərbaycan alimlərinin işləri ilə tanış olmaq imkanına malik olmuşlar. Həmçinin Azərbaycan alimləri də müxtəlif məlumatları İNİS məlumatlar bazasından almaq imkanına malikdirlər.

# 3. NÜVƏ VƏ RADİASİYA TƏHLÜKƏSİZLİYİ ÜZRƏ EKSPERTİZA MƏRKƏZİ – AEBA

Bu mərkəzdə aşağıdakı istiqamətlərdə işlər aparılır:

Respublikada nüvə enerjisinin dinc məqsədlərlə istifadəsi, radioaktiv mənbələrin monitorinqi və təhlükəsiz istismarı üzrə elmi-metodik rəhbərlik;

Respublikada təbii və istehsal prosesləri ilə əlaqəli radiasiya təhlükəsizliyi durumunun tədqiqi. Aşkar olunmuş problemlərin həlli istiqamətli elmi-texniki araşdırmaların aparılması və müvafiq təkliflərin işlənilməsi;

Respublikamızda nüvə və radiasiya təhlükəsizliyi üzrə norma, standart və digər sənədlərin işlənilməsində istirakı;

Müəssisə və ərazilərin radioekoloji vəziyyətinin tədqiqi və durumu üzrə təkliflərin hazırlanması;

Respublikamızın nüvə və radiasiya təhlükəsizliyi üzrə xarici və daxili faktorların qiymətləndirilməsi, elmi əsaslanmış təkliflərin, proqramların işlənilməsi;

Respublikamızda neft-qaz istehsalı sahələrində radioekoloji və radiasiya təhlükəsizliyi durumu tədqiq olunur, ətraf mühitə bərk, maye və qaz halında tullantıların radionuklid tərkibi araşdırılıb, müəssisələrin radiasiya təhlükəsizliyi pasportlaşması aparılır.





# Əldədaşınan laboratoriya avadanlıqları






İnSpector 1000 (γ və n), CANBERRA




HP Ge handheld Spectrometr, BSİ






AtomTex,   Radiagem 2000, CANBERRA







Polimaster, Radeye, GPS-Garmin

# 4. İKİLİ TƏYİNATLI MATERİAL, MƏHSUL VƏ AVADANLIQLARIN İDXAL-İXRACINA NƏZARƏT MƏRKƏZİ – ABŞ ENERGETİKA NAZİRLİYİ

Respublikamızda idxal-ixracda nüvə və ikili təyinatlı materialların sərhədlərdə monitorinq sisteminin işlək halının, bu sahədə kadrların professional hazırlığının təşkili, nüvə və ikili təyinatlı materialların dərin ekspertizasının həyata keçirilməsi aparılır.












# RADİASİYA PROBLEMLƏRİ İNSTİTUTUNUN XARİCİ ƏLAQƏLƏRİ

MDB ATOM ENERJİSİNİN DİNC MƏQSƏDLƏRLƏ İSTİFADƏSİ ÜZRƏ KOMİSSİYA

RUSİYA, MOSKVA DÖVLƏT UNİVERSİTETİ

ABŞ ARQONN MİLLİ LABORATORİYASI

ATOM ENERJİSİ ÜZRƏ BEYNƏLXALQ AGENTLİK

RUSİYA, İ.V.KURÇATOV MƏRKƏZİ, DUBNA, OBNİNSK

ABŞ ENERGETİKA NAZİRLİYİ, SANDİO MİLLİ LABORATORİYASI

FRANSA

TAEK

ABŞ ENERGETİKA NAZİRLİYİ, MİLLİ NÜVƏ TƏHLÜKƏSİZLİYİ ADMİNİSTRASİYASI

BELORUSİYA MILLI ELMLƏR AKADEMİYASININ "EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏRDƏN İSTİFADƏ PROBLEMLƏRİ" İNSTİTUTU

CRDF FONDU

NATO

KOREYA ATOM ENERJİ TƏDQİQATLARI İNSTİTUTU

ÖZBƏKİSTAN, NÜVƏ FİZİKASI İNSTİTUTU

ABŞ ENERGETİKA NAZİRLİYİ, BATELL MEMORİAL İNSTİTUTU

AVSTRİYA, ZALSBURQ UNİVERSİTETİ

UKRAYNA, XARKOV FİZİKA- TEXNİKİ İNSTİTUTU

QAZAXSTAN, NÜVƏ FİZİKASI İNSTİTUTU

GÜRCÜSTAN, FİZİKA İNSTİTUTU

AVROPA KOMİSSİYASININ BİRGƏ TƏDQİQATLAR MƏRKƏZİ, TRANS-URAN ELEMENTLƏR İNSTİTUTU, KARLSRİHE, ALMANİYA

Ukrayna Çernobıl Nüvə Tədqiqatları, radioaktiv tullantılar və radioekologiya üzrə Beynəlxalq radioekoloji laboratoriya

VARŞAVA NÜVƏ KİMYASI VƏ TEXNOLOGİYASI İNSTİTUTU

# MEMORANDUM OF UNDERSTANDING
# FOR TECHNICAL COOPERATION

**BETWEEN:**

**The Institute of Radiation Problems of Azerbaijan National Academy of Sciences**, having its principal place of business at B.Vahabzadeh Str. 9, Baku, Republic of Azerbaijan,

Hereinafter referred to as "IRP",

on the one hand,

**AND:**

**State Scientific and Research Institution " Chornobyl Center For Nuclear Safety, Radioactive Waste and Radioecology"** , having its principal place of business at P.O. Box 151, Slavutich, Ukraine, 07100
hereinafter referred to as "**SSRICC**"

on the other hand,

hereinafter collectively referred to as the "Sides" and individually as a "Side".

## INTRODUCTION

WHEREAS, IRP and SSRICC have considered the advantages that may be obtained from close cooperation in the fields of research and development with respect to the peaceful uses of nuclear energy; and

WHEREAS, IRP and SSRICC have mutual interests and intend to enter into a formal Memorandum of Understanding (hereinafter referred to as "MOU") and that the inventions, developments and improvements to be made will lead to the establishment of mutual benefits for both Sides:
NOW, therefore, in consideration of their mutual areas of interest, the Sides hereto have agreed as follows:

# 6. RESPUBLİKADA AEBA-NIN NÜVƏ ELMLƏRİ SAHƏSİNDƏ İNFORMASİYA MÜBADİLƏSİNİN HƏYATA KEÇİRİLMƏSİ

# BEYNƏLXALQ NÜVƏ MƏLUMATLARI MƏRKƏZİ

- AEBA ilə AMEA-nın ilk əməkdaşlıq layihəsi olan – Radiasiya Problemləri İnstitutunun əsasında Beynəlxalq Nüvə Məlumatlar Mərkəzi öz fəaliyyətini 2012-ci ildə uğurla davam etdirib. 2012-ci il ərzində AEBA-nın Beynəlxalq Nüvə Məlumatları Mərkəzi Sisteminə 300 məlumat daxil edilib. AEBA-dan alınan CD disklər toplanan informasiyanın mövzusuna uyğun olaraq çeşidlənib. Bütün məqalələr tərcümə olunub. AEBA-dan nüvə enerjisinin dinc məqsədlərlə istifadə sahəsinin müxtəlif sahələrini, o cümlədən nüvə reaktorları və onların yanacaq tsikli, nüvə enerjisinin təhlükəsizliyi, nüvə reaktorlarının fizikası, nüvə silahlarının yayılmamasına dair fəaliyyət, nüvə və radioaktiv materialların qeyri-qanuni dövriyyəsinin qarşısının alınması, nüvə qurğularının fiziki müdafiəsi, nüvə yanacaq tsiklinə terror təhlükəsi, nəzəri nüvə fizikası, yüklənmiş hissəciklər fizikası, radioekologiyada nüvə fizikası üsullarının tətbiqi, nüvə sınaqları keçirilən ərazilərin ekoloji problemləri, ekoloji riskin qiymətləndirilməsində nüvə üsullarının tətbiqi, radioaktiv tullantıların basdırılması zamanı yaranan radioekoloji problemlər, neft çıxarmada təbii və süni radionuklidlərin yaratdığı problemlər, radioizotopların istehsalı, radionuklidlərin canlı orqanizmlərə təsiri, kənd təsərrüfatında istifadə olunan nüvə texnologiyaları, tibbdə istifadə olunan nüvə texnologiyaları, sənayedə istifadə olunan nüvə texnologiyaları, radiasiya kimyəvi, radiasiya fizikası, radiasiya materialşünaslığı və digər nüvə ilə əlaqədar sahələrə dair xülasə şəklində olan məlumatlar CD disklərdə daxil olunmuş və İnstitutun əməkdaşlarının istifadəsinə verilmişdir
- Bakı Dövlət Universiteti, Geologiya institutu, Fizika institutu, Aerokosmik Agentlik ve Biologiya Institutu tərəfindən alınan bir cox məlumatlar təhlil edilmiş və nəticələr barədə məlumatlar INIS-in Vyanadakı ofisinə göndərilmişdir. Hər həftə Mərkəz tərəfindən ən azı 20 ədəd Nüvə sahəsinə aid məqalənin inputu hazırılanır.
- 2012-ci ildə AEBA-nın keçirdiyi təlim kursunda İNİS-in əməkdaşı iştirak etmişdir. 2012-ci il ərzində Dövlət Neft Şirkətinin "Nanotexnologiyalar" Elmi İstehsalat Mərkəzi, Azərbaycan Dövlət Tibb Universitetinin Beynəlxalq Şöbəsi, Milli Aerokosmik Agentliyin Elmi-Tədqiqat Aerokosmik İnformatika İnstitutunun "Perspektiv araşdırmalar və marketinq" Şöbəsi, Milli Onkologiya Mərkəzinin Şüa Terapiyası Şöbəsində İNİS Mərkəzinin dayaq məntəqəsinin formalaşması və informasiya mübadilə sisteminin təşkili üçün anlaşma memorandumu imzalanmışdır.

# 7. ELMİ NƏTİCƏLƏRİN TƏTBİQİ

# RADİASİYA PROBLEMLƏRİ İNSTİTUTUNUN
# 2012-Cİ İL ETİ NƏTİCƏLƏRİNİN XALQ TƏSƏRRÜFATINA TƏDBİQİ

| ELMİ MÜƏSSİSƏNİN ADI | CƏMİ | YERİNƏ YETİRİLMİŞ İŞLƏR | | PLANA GÖRƏ, O CÜMLƏDƏN | | | SƏNAYEYƏ VERİLİB | PLAN, İLLİK İQTİSADİ SƏMƏRƏ | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | PLANDAN ƏLAVƏ | CƏMİ | XALQ TƏSƏRRÜFATINA TƏDBİQİ | KEÇİCİ | YENİ | | FAKT | GÖZLƏNİLƏN | CƏMİ |
| RADİASİYA PROBLEMLƏRİ İNSTİTUTU | 3 | | 3 | 3 | 3 | - | - | - | - | - |

# AMEA RADİASİYA PROBLEMLƏRİ İNSTİTUTUNUN ƏMƏKDAŞLARI

| ELMİ MÜƏSSİSƏNİN ADI | İŞÇİLƏRİN SAYI | | | | | |
|---|---|---|---|---|---|---|
| | CƏMİ | ELMİ İŞÇİ | AKADEMİK | MÜXBİR ÜZV | ELMLƏR DOKTORU | ELMLƏR NAMİZƏDİ |
| **RADİASİYA PROBLEMLƏRİ İNSTİTUTU** | **269** | **129** | **1** | **2** | **16** | **61** |

2012-ci il ərzində Radiasiya Problemləri İnstitutunda 280 işçi çalışmışdır ki, onlardan da 129 nəfəri elmi işçidir. Elmi işçilərdən 16 nəfəri elmlər doktoru, 61-nəfəri elmlər namizədidir. İnstitutda 23 aparıcı elmi işçi, 21 böyük elmi işçi, 10 elmi işçi, 50 kiçik elmi işçi fəaliyyət göstərmişdir.

Hesabat ilində göstərilən istiqamətlərdə 15 laboratoriya, 2 elmi mərkəz, 3 beynəlxalq mərkəz və 2 şöbə fəaliyyət göstərib.

İnstitutun 6 əməkdaşı Rusiya Federasiyasının Dubna Beynəlxalq Nüvə Tədqiqatları İnstitutunda istisas artırmaqla elmi tədqiqatlar aparır, tədqiqat nüvə reaktorlarının istifadəsi üzrə ixtisaslaşırlar. 2012-ci ildə institutun 2 gənc mütəxəssisi Avstriyanın Vyana, Sloveniyanın Lyubiyana, Çexiyanın Praqa şəhərində Tədqiqat Nüvə Reaktorları mövzusunda keçirilən təlim kurslarında, bir əməkdaş Polşanın Otvork şəhərində "Tədqiqat Nüvə Reaktorlarında təhlükəsizlik" mövzusunda keçirilən kursda, bir elmi işçi İtaliyanın Triyest şəhərində Abdus Salam Beynəlxalq Nəzəri Fizika Mərkəzinin AEBA ilə birgə təşkil etdiyi "Nüvə enerjisi menecmenti" kursunda iştirak edərək nüvə tədqiqatları sahəsində ixtisaslaşmışlar.

# 8. KADR HAZIRLIĞI

# RADİASİYA PROBLEMLƏRİ İNSTİTUTUNDA 2012-Cİ İLDƏ KADRLARIN HAZIRLANMASI

| ELMİ MÜƏSSİSƏNİN ADI | İŞÇİLƏRİN SAYI | | | | | | ASPİRANTU-RAYA QƏBUL | | | DİSSERTASİ-YALARIN MÜDAFİƏSİ | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | CƏMİ | ELMİ İŞÇİ | AKADEMİK | MÜXBİR ÜZV | ELMLƏR DOKTORU | FƏLSƏFƏ DOKTORU | CƏMİ | ƏYANİ | QİYABİ | CƏMİ | DOKTORLUQ | FƏLSƏFƏ DOKTORU LUQ |
| RADİASİYA PROBLEMLƏRİ İNSTİTUTU | 280 | 129 | 1 | 2 | 16 | 61 | 3 | - | 3 | 6 | - | 6 |

# 9. BEYNƏLXALQ VƏ ÖLKƏ DAXİLİ SAZİŞLƏR ÜZRƏ ELMİ-TƏDQİQAT İŞLƏRİ

# ÖLKƏ DAXİLİ MÜQAVİLƏLƏRİN YERİNƏ YETİRİLMƏSİ

- 2012-ci ildə ARDNŞ-nin “AZƏRNEFTYAĞ” Neft Emalı Zavodunun “İşlənmiş qumbrin istehsalat tullantısının radioekoloji, radiogigienik və radiasiya təhlükəsizliyi üzrə pasportunun hazırlanması üzrə 29760 manatlıq, eləcə “Holcim (Azərbaycan) OJSC-nin istehsal ərazisində quraşdırdığı GEOSCAN avadanlığının istifadəsi zamanı radiasiya təhlükəsizliyinin təşkili treninq kursu üçün 3500 manat, “ECOLAND” MMC-nin “Keçmiş Bakı Yod zavodunun Sabunçu və Suraxanı rayonlarında yerləşən istehsalat sahələrinin seçilmiş və ona yaxın ərazilərinin ekspozisiya doza gücünün təyini, çirklənmiş torpaqların və qrunt suyu nümunələrinin radionuklid tərkibinin analizi, havada radon qazının həcmi aktivliyinin təyini” üzrə 40000 manatlıq müqavilə yerinə yetirilmiş, nəticədə 73260 manat institutun hesabına köçürülmüşdür.

**ABŞERON YARIMADASININ EKOLOJİ BƏRPA PROQRAMI**

çərçivəsində

**AMEA RADİASİYA PROBLEMLƏRİ İNSTİTUTU**-nun

**“ECOLAND MMC”** ilə

**“ KEÇMİŞ BAKI YOD ZAVODUNUN SABUNÇU VƏ SURAXANI RAYONLARINDA YERLƏŞƏN İSTEHSALAT SAHƏLƏRİNİN SEÇİLMİŞ VƏ ONA YAXIN ƏRAZİLƏRİN EKSPOZİSİYA DOZA GÜCÜNÜN TƏYİNİ , ÇİRKLƏNMİŞ TORPAQLARIN VƏ QRUNT SUYU NÜMUNƏLƏRİNDƏ RADİONUKLİD TƏRKİBİNİN ANALİZİ, HAVADA RADON QAZININ HƏCMİ AKTİVLİYİNİN TƏYİNİ"**

mövzusunda bağlanmış müqavilə üzrə həyata keçirilən

**İŞLƏR**





# Görülürmüş işlər

- Sabunçu və Suraxanı rayonlarında yerləşən istehsalat sahələrinin seçilmiş və ona yaxın ərazilərin ekspozisiya dozasinin gücünün təyini

- Çirklənmiş torpaqların və qrunt suyu nümunələrində radionuklid tərkibinin analizi

- Havada radon qazının həcmi aktivliyinin təyini

- Radioaktiv kömür tullantıları daşıyan özüboşaldan avtomaşının perimetrinin səthində alfa və beta şüalanmasının səthi aktivliyinin təyini

# Sabunçu rayonunda yerləşən istehsalat sahəsi



# Ramana Yod Zavodu ərazisinin sxemi



# Sabunçu rayonunda yerləşən istehsalat sahəsinin 44 nöqtəsində EDG ölçülmüş və zamandan asılılıq dinamikası öyrənilmişdir



# Suraxanı yod zavodu ərazisinin sxemi



# Suraxanı rayonunda yerləşən istehsalat sahəsinin 76 nöqtəsində EDG ölçülmüş və zamandan asılılıq dinamikası öyrənilmişdir



## Sabunçu və Suraxanı rayonlarında yerləşən istehsalat sahələrinin seçilmiş və ona yaxın ərazilərin ekspozisiya dozasinin gücünün təyini










RAMANI QƏSƏBƏSİNDƏ YERLƏŞƏN YOD ZAVODUNUN ƏRAZİSİNİN QAMMA-GÜALANMA FONU XƏRİTƏSİ

Xəritə 1




İcracı: Eldar Hüseynov
Tel.: 4302367

Xəritə 2

# SURAXANI QƏSƏBƏSİNDƏ YERLƏŞƏN YOD ZAVODUNUN ƏRAZİSİNİN QAMMA – ŞÜALANMA FONU XƏRİTƏSİ




Radiasiya Nəzarət Xidməti

# Ramana yod zavodunun ərazisindən götürülmüş kömür nümunələrinin radionuklid tərkibi

| Nümunənin №-si | Tərkibində təyin edilmiş radionuklidin xüsusi aktivliyi | | | | Aeff Bk/kq |
|---|---|---|---|---|---|
| | Ra-226 Bk/kq | Ra-228 Bk/kq | U-235 Bk/kq | U-238 Bk/kq | |
| I Kərpiclə qarışmış Kömür Tayası Mərkəz N 7 nöqtəsi | 5019 ± 19 | 811 ± 11 | 167 | 3480 | 6081 ± 24 |
| II Kömür Tayası Mərkəz N 12 nöqtəsi | 4111 ± 19 | 680 ± 11 | 84 | 1743 | 5002 ± 24 |
| III Kömür Tayası Hündür Təpənin N 25 nöqtəsinin səthindən | 9452 ± 30 | 576 ± 11 | 284 | 5928 | 10207 ± 33 |
| III Kömür Tayası Hündür Təpənin N 25 nöqtəsində 60 sm dərinlikdən | 7120 ± 25 | 445 ± 16 | 174 | 3623 | 7703 ± 33 |

# Suraxanı yod zavodunun ərazisində olan radioaktiv kömürün təqribi qiymətləndirilməsi

| Kömür Tullantısının adı | Kömür tayalarının forması | Tullantı sının sahəsi, $m^2$ | Tullantı sının hündürlüyü, sm | Tullantı sının həcmi, $m^3$ | Tullantı sının, kütləsi, ton |
|---|---|---|---|---|---|
| A | Düzbucaqlı həndəsi formalı qırmızı kərpiclə qarışıq kömür tayası | 5460 | 120 | 6552 | 3931 |
| B | Qırmızı kərpic və asbest borularla qarışıq kömür tayası | 4670 | 100 | 4670 | 2802 |
| C | Çoxbucaqlı formalı kömür tayası | 5000 | 250 | 12500 | 7500 |
| E | Düzbucaqlı trapesiya həndəsi formalı kömür tayası | 423 | 30 | 127 | 76 |
| F | Çoxbucaqlı həndəsi formalı pasla qarışıq ərp ləkəsi | 323 | 15 | 48 | 97 |
| CƏMİ | | 16 075 | | 23 977 | 14 474 |

# Suraxanı yod zavodunun ərazisindən götürülmüş kömür nümunələrinin radionuklid tərkibi

| Nümunənin №-si | Tərkibində təyin edilmiş radionuklidin xüsusi aktivliyi | | | | Aeff Bk/kq |
|---|---|---|---|---|---|
| | Ra-226 Bk/kq | Ra-228 Bk/kq | U-235 Bk/kq | U-238 Bk/kq | |
| Kömürün külü N 24 nöqtəsi | 10523 ± 49 | 951 ± 33 | 182 | 3797 | 11769 ± 65 |
| I Kömür Tayası Mərkəz N 12 nöqtəsi | 8003 ± 41 | 2974 ± 32 | 82 | 1709 | 11899 ± 59 |
| N 23 nöqtəsi h = 30sm dərinlikdən | 11876 ± 46 | 979 ± 31 | 179 | 3744 | 13158 ± 61 |
| N 23 nöqtəsi h = 60sm dərinlikdən | 10176 ± 47 | 718 ± 32 | 164 | 3421 | 11117 ± 63 |
| N 23 nöqtəsi h = 0sm səthindən | 8984 ± 30 | 963 ± 19 | 170 | 3553 | 10246 ± 39 |
| N 17 nöqtəsi | 8510 ± 31 | 1252 ± 18 | 150 | 3129 | 10150 ± 39 |
| N 31 nöqtəsi | 6325 ± 24 | 798 ± 14 | 71 | 1473 | 7370 ± 30 |

# NƏTİCƏLƏR

- Ramana qəsəbəsində yerləşən yod zavodunun ərazisində 6091 *m2* ümumi sahədə 4890 *ton* radioaktiv kömür yerləşir. Suraxanı qəsəbəsində yerləşən yod zavodunun ərazisində 15652 *m2* ümumi sahədə 14338 *ton* radioaktiv kömür yerləşir;
- Kömür tullantılarının daxilində və kənarlarında şüalanma dozasının gücü təbii fondan dəfələrlə yüksəkdir. Tullantıların kənarlarından 10 *m* məsafədə doza gücü təbii fon səviyyəsinə enmir. Zavodların ərazilərinin tullantılardan uzaqda yerləşən nöqtələrində şüalanma dozasının gücü təbii fon səviyyəsindədir;
- Kömür tullantılarının açıq havada yerləşməsi səbəbindən ərazidə küləkli hava şəraitində radon qazının havadakı həcmi aktivliyi çox aşağıdır;
- Hər iki ərazidən götürülmüş kömür nümunələrinin tərkibində təbii radionuklidlərin xüsusi aktivliyi çox yüksəkdir və tullantılar radiasiya təhlükəsinə görə II və ya III kateqoriyalarına aiddirlər;
- Hər iki zavod ərazisində II və III kateqoriyalı istehsalat tullantıları mövcud olduğu səbəbdən bu ərazilər radiasiya təhlükəsizliyi nöqteyi nəzərdən təhlükəli hesab olunmalıdır və bu ərazilər aşağı aktivlikli radioaktiv tullantılarla rəftar üçün Azərbaycan Respublikasında qəbul edilmiş radiasiya təhlükəsizliyi təminatının xüsusi qaydalarına riayət etməklə kömür tullantılarından təmizlənməlidir.

## Kateqoriyalar

- **I kateqoriyalı tullantılarla rəftara, onların yığılması, müvəqqəti saxlanması, nəqli və ümumistehsalat tullantıları üçün nəzərdə tutulmuş ərazilərdə basdırılması daxil olmaqla, radiasiya faktoruna görə məhdudiyyət qoyulmur.**
- **II kateqoriyalı istehsalat tullantıları ilə rəftar edərkən, onların sonrakı istifadəsinin planlaşdırılan xarakteri nəzərə alınır. Bu zaman onların yığılması, müvəqqəti saxlanması, nəqli, emalı və basdırılması ardıcıllığı və şəraiti müəssisə işçilərinin və əhalinin şüalanmasının Azərbaycan Respublikasında qəbul edilmiş normativ sənədlərdə müəyyən olunan doza həddlərinə riayəti təmin etməlidir. II kateqoriyalı istehsalat tullantıları ilə rəftara dövlət sanitariya-epidemioloji nəzarət orqanlarının rəftarın sanitar qaydalara uyğun olması haqqında sanitariya-epidemioloji qərarı verilməlidir.**
- **III kateqoriyalı istehsalat tullantıları ilə rəftar aşağı aktivlikli radioaktiv tullantılarla rəftar üçün Azərbaycan Respublikasında qəbul edilmiş radiasiya təhlükəsizliyi təminatının xüsusi qaydalarına uyğun olmalıdır.**

**NQK müəssisələrində istehsalat tullantılarının radiasiya təhlükəsinə görə kateqoriyaları**

| Tullantıların kateqoriyası | Təbii radionuklidlərin effektiv xüsusi aktivliyi ($A_{eff}$), Bk/kq |
|---|---|
| I | $A_{eff} \leq 1\,500$ |
| II | $1\,500 < A_{eff} \leq 10\,000$ |
| III | $A_{eff} > 10\,000$ |

**Atmosfer havasında radon qazının həcmi aktivliyi**

| Ölçmə nöqtəsi | Yerin səthində radon qazının həcmi aktivliyi, *Bk/m*$^3$ | Yerdən 1 *m* məsafədə radon qazının həcmi aktivliyi, *Bk/m*$^3$ |
|---|---|---|
| R1 | 100±9 | 50±4 |
| R2 | 110±12 | 60±5 |
| R3 | 110±8 | 65±5 |
| R4 | 95±6 | 60±5 |
| R5 | 90±7 | 60±4 |
| R6 | 26±3 | 21±3 |
| R7 | 31±4 | 26±3 |
| R8 | 25±4 | 20±3 |
| R9 | 27±3 | 21±4 |
| R10 | 24±5 | 19±4 |
| R11 | 24±4 | 18±3 |
| R12 | 27±4 | 22±3 |
| R13 | 25±5 | 20±4 |
| R14 | 29±5 | 23±4 |
| R15 | 27±5 | 21±5 |
| R16 | 30±4 | 20±4 |

# Keçmiş Bakı Yod Zavodunun Sabunçu və Suraxanı rayonlarında yerləşən istehsalat sahələrində mövcud radioaktiv kömür tullantıları daşıyan özüboşaldan avtomaşının perimetrinin səthində Alfa və beta şüalanmasının səthi aktivliyi göstəricilərinin ölçülmə SXEMİ




**Nəticə:**

Keçmiş Bakı Yod Zavodunun Sabunçu və Suraxanı rayonlarında yerləşən istehsalat sahələrində mövcud radioaktiv kömür tullantıları daşıyan özüboşaldan avtomaşının perimetrinin səthində Alfa və beta şüalanmasının səthi aktivliyi yol verilən hədd daxilində olub radiasiya təhlükəsizliyi nöqteyi nəzərindən şəhərdaxili marşurtla daşınması mümkündür.

# Radioaktiv kömür tullantıları daşıyan özüboşaldan avtomaşların perimetrinin səthində alfa və beta şüalanmasının səthi aktivliyi min, max və orta qiymətlərinin göstəriciləri

| Tullantıların kateqoriyası | Radioaktiv çirklənmə səviyyəsi, imp/ ($sm^2$ x min) | | |
|---|---|---|---|
| | beta-buraxan radionuklidlərin | alfa-buraxan radionuklidlərin | transuran radionuklidlərin |
| Aşağı səviyyəsi | 5 x $10^2$  $10^4$ | 5 x $10^1$ -dək $10^3$ | 5 -dək $10^2$ |
| Orta səviyyəsi | $10^4$ -dək $10^7$ | $10^3$ -dək $10^6$ | $10^2$ -dək $10^5$ |
| Yüksək səviyyəsi | > $10^7$ | > $10^6$ | > $10^5$ |

| **Şüalanmanın növü** | **Şüalanmanın səthi aktivliyinin min qiyməti, imp/dəq*sm$^2$** | **Şüalanmanın səthi aktivliyinin max qiyməti, imp/dəq*sm$^2$** | **Şüalanmanın səthi aktivliyinin orta qiyməti, imp/dəq*sm$^2$** | **Şüalanmanın səthi aktivliyinin yol verilən qiyməti, imp/dəq*sm$^2$** |
|---|---|---|---|---|
| alfa | 0.00 | 0.06 | 0.01 | 10 |
| beta | 0.37 | 6.75 | 0.79 | 100 |

# Sabunçu rayonunda yerləşən istehsalat sahəsinin bəzi nöqtələrində səthdən götürülmüş nümunələrin effektiv aktivliyin 05.06.12-14.09.12 zaman intervalından asılılığı.












# Nəticə

- Dozimetrik və spektrometrik nəticələrin müqayisəli təhlili göstərir ki, 17 avqust 2012 ci il tarixli monitorinq zamanı Keçmiş Bakı Yod Zavodunun Sabunçu və Suraxanı rayonlarında yerləşən istehsalat sahələrinin seçilmiş nötələrində EDG-nün yüksək qiymətləri hazırda müşahidə edilmir.

- Bu nöqtələrdə doza gücü fon tərtibindədir. Bu nöqtələrdə səthdən götürülmüş nümunələrdə Ra-226 izotopunun miqdarı Perekeşkül ərazisindən təmizlənmiş əraziyə daşınaraq tökülən təmiz torpaqdakı miqdardadır.

- Monitorinq zamanı müəyyən olunmuşdur ki, Ramana istehsalat sahəsinin II, III, IV və VI kömür sahəsində və onun ətrafında qamma şüalanmasının ekspozisiya dozasının gücü normalara uyğundur və ərazidən götürülmüş nümunələrin tərkibində müşahidə olunan radionuklidlərin xüsusi aktivliyi təmiz tökmə torpağın ilkin radionuklid tərkibi ilə eyni olması müəyyən olunmuşdir. Bu sahələr normativ sənədlərin tələblərinə tam cavab verir.

İstinadlar:


- International Basic Safety Standards for Protection Against Snoozing Radiation and for the Safety of Radiation Sources Safety Standards Series No 115-Vienna IAEA (1996);
- Нормы радиационной безопасности НРБ-76/87
- Нормы радиационной безопасности НРБ-2000;
- СанПиН 2.6.6.1169-02. 2002г

# RADİASİYA PROBLEMLƏRİ İNSTİTUTUNUN 2012-Cİ İLDƏ TƏSƏRRÜFAT HESABLI İŞLƏRİN YERİNƏ YETİRİLMƏSİ

| ELMİ MÜƏSSİSƏNİN ADI | İŞLƏRIN SAYI | TƏSƏRRÜFAT HESABLI İŞLƏRİN MƏBLƏĞİ (MANAT) | YERİNƏ YETIRİLMİŞDİR (MANAT) |
|---|---|---|---|
| RADİASİYA PROBLEMLƏRİ İNSTİTUTU | 3 | 73260 | 73260 |

# RADİASİYA PROBLEMLƏRİ İNSTİTUTUNUN MDB-nin ELMİ-TƏDQİQAT İNSTİTUTLARI İLƏ ƏMƏKDAŞLIQ MÜQAVİLƏLƏRİ

1. RPİ-nin (sədr k.e.n., prof. A.A.Qəribov) "Radiasiya və plazma-heterogen prosesləri" laboratoriyasının Rusiyanın "Kurçatov İnstitutu" Elmi mərkəzinin Hidrogen Energetikası və Plazma Texnologiyası İnstitutu ilə
2. RPİ-nin (lab.müdiri f.r.e.d. A.M.Məhərrəmov) "Elektroaktiv kompozit materialların radiasiya-fizikası" laboratoriyasının Semyonov adına PEA-nın Fiziki-Kimya İnstitutu ilə
 - "Güclü elektrik sahəsi və ya qaz boşalması plazmasının təsiri ilə bərk polimer nümunələrinin termolüminissensiyasının həyəcanlanması" mövzusuna dair proyekt
 - "Müxtəlif üst molekulyar strukturlu poliolefinlərə elektrik boşalmasının təsiri" mövzusuna dair əməkdaşlıq müqaviləsi
- "Qarışıq radikalların radiasiya modifikasiyalı polimerlərin elektret xassələrin təsirinin tədqiqi" mövzusuna dair birgə işlər
3. RPİ-nin "Elektroaktiv kompozit materialların radiasiya-fizikası" (lab.müdiri f-r.e.d.,. A. M. Məhərrəmov) laboratoriyasının M.N.Emmanuel adına Biokimyəvi Fizika İnstitutu ilə "Geniş diapazon tərkibdə aşağı sıxlıqlı PE və PP polimerləri qarışığının xassələrinin və strukturunun kompleks tədqiqi" mövzusuna dair əməkdaşlıq müqaviləsi
